

## Təbiət ilə harmoniyada olan bir gələcək yaradaq

5


# Səs

№ 142 (6583) **11 avqust** 2022-ci il. **Qiymәti 60 qәpik**


# Müsəlman ölkələrindən birlik nümunəsi!

3



*Azərbaycan idmançılarının qazandığı çoxsaylı medallar, ölkəmizin bütün dünyada idman ölkəsi kimi tanınmasında əvəzolunmaz amildir. Mötəbər arenalarda bayrağımızın dalğalanmasında və bu nailiyyətlərin təməlində məhz dövlətin uğurlu idman siyasəti dayanır.*

# Laçını yandıranlar və yananlar

6



***Bu gün yenə o gündür. Eynilə ermənilərə işğal etdikləri və 30 il qanunsuz olaraq məskunlaşdıqları, 30 il bu torpaqların yerüstü və yeraltı sərvətlərini taladıqları Azərbaycanın barlı-bərəkətli rayonlarını - Ağdamı, Kəlbəcəri və Laçını tərk etmələri üçün verdiyimiz vaxt. O vaxt biz düşünürdük ki, işğalçı ermənilər gəldikləri kimi də adamlıq, insanlıq edib gedəcəklər, hələ bir üzr də istəyəcəklər, 30 il qonaq qaldıqları üçün, taladıqları və istismar etdikləri üçün. Amma gözləntilərimiz havada qaldı və həm də vəhşiliklə müşaiyyət olunan hadisələr ermənilərin iç üzünü ifşa etdi, nə qədər barbar olduqlarını bütün dünyaya nümayiş etdirdi….***

## İqtisadi inkişaf konsepsiyası: Bizi növbəti 5 ildə nə gözləyir?



15

## COVID-19 pandemiyası insan qatilinə çevrilib




9

## Evin tək övladı hərbi xidmətə getməlidir?



9

## Məhv etdiyimiz adətlərimizdən biri - Xınayaxdı...





16

## İslam Həmrəyliyi Oyunlarında daha 2 medal!

## Hansı aralıqlarda su içmək lazımdır?



16



## "Qisas" əməliyyatı ermənilərə dərs verdi"

2

*"Qarabağ Azərbaycanındır. Laçın da Azərbaycanın gözəl rayonlarından biridir. Azərbaycanın 30 illik Qarabağ həsrəti sona çatıb".*



## Feministlər nə istəyir?

14

*2022-ci ildə cəmiyyət hələ də feminizmə münasibəti və onun məqsədlərini dərk etmək istəmirlər.*



*Prezident İlham Əliyev avqustun 10-da Əlcəzair Xalq Demokratik Respublikasının xarici işlər və xaricdəki milli icma naziri Ramtan Lamamranı qəbul edib.*

# "Azərbaycan və Əlcəzair uğurlu əməkdaşlıq həyata keçirir"

## *Prezident İlham Əliyev Əlcəzairin xarici işlər və xaricdəki milli icma nazirini qəbul edib*

Ramtan Lamamra Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelməcid Tebbunun salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırıb. Nazir bildirib ki, Əlcəzair Prezidenti Azərbaycanda gedən inkişaf proseslərini və Prezident İlham Əliyevin Qoşulmama Hərəkatına çox uğurlu rəhbərliyini böyük maraqla izləyir.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirib, onun da salamlarını Abdelməcid Tebbuna çatdırmağı xahiş edib.

Dövlətimizin başçısı Əlcəzairin Qoşulmama Hərəkatı çərçivəsində ölkəmizin irəli sürdüyü təşəbbüslərə, eləcə də Azərbaycanın təşkilata sədrlik müddətinin uzadılması ilə bağlı qərara verdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev OPEC+ formatında da Azərbaycanla Əlcəzairin uğurlu əməkdaşlıq həyata keçirdiyini vurğuladı. Gələcəkdə əməkdaşlığın daha səmərəli və fəal şəkildə aparılması üçün bir çox sahələrin mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev iqtisadi, ticarət, biznes və enerji sahələrində əlaqələri genişləndirməyin zəruriliyini bildirdi.

Prezident İlham Əliyev Ramtan Lamamranın ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Qonaq bildirdi ki, gözəl, qardaş ölkə olan Azərbaycana səfərdən məmnundurlar və o, göstərilən qonaqpərvərliyə görə təşəkkür etdi. Öz növbəsində əlaqələrimizin genişlənəcəyinə əminliyini ifadə edən Ramtan Lamamra ölkələrimizin bir-birinə göstərdiyi dəstəyi vurğuladı, Azərbaycan ilə Əlcəzair arasında qarşılıqlı etimadın mövcudluğunu məmnunluqla qeyd etdi və bunun bir çox sahələrdə əməkdaşlığın möhkəmlənməsi üçün çox səmərəli nəticələr verə biləcəyini bildirdi.

## "Daily Sabah": Zəngəzur dəhlizi Avropa ilə Asiyanı birləşdirən yeni nəqliyyat yoludur



DAILY SABAH

Zangezur corridor: New transport route to connect Europe and Asia

A view of the newly rebuilt village of Agali in the district of Zangilan, Azerbaijan, July 19, 2022. (AFP Photo)

BY ANASTASIA LAVRINA AUG 09, 2022 12:05 AM

The unblocking of transport corridors will both open up a lot of considerable financial opportunities and contribute to long-term peace in the South Caucasus region

Zəngəzur dəhlizinin açılması bir çox maliyyə fürsətləri yaradacaq və Cənubi Qafqazda davamlı sülhə xidmət edəcək. Bu fikir Türkiyənin "Daily Sabah" portalında yerləşdirilən "Zəngəzur dəhlizi: Avropa ilə Asiyanı birləşdirən yeni nəqliyyat yolu" sərlövhəli məqalədə yer alıb.

Məqalənin müəllifi - YAP Gənclər Birliyinin üzvü, siyasi şərhçi Anastasiya Lavrina qeyd edib ki, Ermənistanla Azərbaycan arasında baş verən 44 günlük müharibədən sonra Cənubi Qafqaz regionunda geosiyasi vəziyyət tamamilə dəyişib. Azərbaycanı Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizi Asiyanın Avropa və Yaxın Şərqlə əlaqəsini qısaldacaq.

Zəngəzur dəhlizi Sakit və Atlantik okeanları arasında ən qısa yol hesab olunur, həmçinin Şimaldan Cənuba, Şərqdən Qərbə gedən yolların kəsişməsində yerləşir. Zəngəzur dəhlizi Avropanı Asiya ilə birləşdirən nəqliyyat əlaqələrində önəmli rol oynayacaq.

Müəllif diqqətə çatdırıb ki, Azərbaycan və Ermənistan liderlərinin Brüssel görüşündə vaxtilə Zəngəzurdan keçən qatar yollarının yenidən istifadəyə verilməsi müzakirə olunub. Avropa İttifaqı regionda nəqliyyat dəhlizlərinin açılmasını qətiyyətlə dəstəkləyir. ABŞ və Türkiyə də bu layihənin tərəfdarları arasındadır.

Bu layihə bir çox iqtisadi imkanlar yaratmaqla yanaşı, Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün formalaşmasına töhfə vermiş olacaq.

Sonda vurğulanıb ki, Zəngəzur dəhlizinin işə salınması həm də Orta Dəhlizin inkişafını təmin edəcək. Bu isə Qara dənizdən Qafqaz və Mərkəzi Asiyadan keçməklə Hindistan, Çin və Şərqi və Cənubi Asiyanın digər ölkələrinə qədər bütün regionun iqtisadiyyatına müsbət təsir göstərəcək.

## "Qisas" əməliyyatı ermənilərə dərs verdi

***"Qarabağ Azərbaycanındır. Laçın da Azərbaycanın gözəl rayonlarından biridir. Azərbaycanın 30 illik Qarabağ həsrəti sona çatıb". Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç deyib.***

Hulusi Kılıç bildirib ki, Laçının içindən alternativ yol çəkilmişdir: "Artıq tranzit keçidlər alternativ yol üzərindən aparılacaq. Bu isə Azərbaycanın Qarabağa girişinə nəzarət etməsinə kömək olacaq. Üçlü bəyanata görə bütün erməni silahlı dəstələri silahlarını buraxmalıdır. Ancaq keçən həftə baş verən terror aktı ermənilərin üzərinə düşən vəzifəni və məsuliyyəti yerinə yetirmədiklərini görsətdi. Bir əsgərimizin şəhid olması bizi kədərləndirdi. "Qisas" əməliyyatı başladıldı və erməni tərəfinə lazımi dərs verildi. Laçının boşaldılması əgər gecikərsə və ya terror törədilərsə, o zaman Azərbaycanın "dəmir yumruğu" yerindədir. Bir daha belə bir terror aktı törədilərsə, gərəkli olan cavab veriləcək. Zabux Azərbaycan kəndidir. Ermənilərin Zabuxu boşaltması da vacibdir. Azərbaycan üzərinə düşən vəzifələri yerinə yetirir, Ermənistan isə yeni reallıqları dərk etməlidir. Qarabağda yeni həyat başlayacaq. Ermənistan Azərbaycan və Türkiyə ilə normal qonşuluq münasibəti qurmaq istəyirsə, sülh sazişini imzalamalıdır. Siyasilər vəzifələrini edərsə, Qafqazda barış, sülh inkişaf olar. Yolun açılması ilə bərabər ermənilər üzərlərinə düşən vəzifələri yerinə yetirməli, Laçında heç bir erməni qalmayacaq şəkildə boşal-



dılmasını gözləyirik. Ən son "Qisas" əməliyyatı göstərdi ki, Azərbaycanın güclü lideri və ordusu vardır. Ona görə bölgə ermənilər tərəfindən boşaldılmalıdır".

***Qönçə Quliyeva***



# Müsəlman ölkələrindən birlik nümunəsi!

***Azərbaycan idmançılarının qazandığı çoxsaylı medallar, ölkəmizin bütün dünyada idman ölkəsi kimi tanınmasında əvəzolunmaz amildir. Mötəbər arenalarda bayrağımızın dalğalanmasında və bu nailiyyətlərin təməlində məhz dövlətin uğurlu idman siyasəti dayanır. Beynəlxalq meydanda yüksək zirvələr fəth etmiş, Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında xalqımızı qələbə və medallarla sevindirən idmançılarımız bu gün də Müzəffər xalqın idmançıları kimi qələbələrinin sayı artmaqdadır. Bu gün Azərbaycan idmançıları Koniyada keçirilən V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edirlər. Bu Oyunların məhz Türkiyənin Konya şəhərində keçirilməsi təsadüfi deyil. Qədim tarixi olan Konya şəhəri İslam sivilizasiyasının mühüm mərkəzlərindən kiri kimi sayılır.***



*İlham Əliyev: "Biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu Oyunlarda iştirak edəcəyik"*












**"BİZİM QƏLƏBƏLƏRİMİZ HƏM OLİMPİYA OYUNLARINDA, HƏM DƏ DÜNYA, AVROPA ÇEMPİONATLARINDA ARTIQ ADİ HALA ÇEVRİLİB"**

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşü zamanı dövlət başçısı çıxışında bildirdiyi kimi, "Bizim idmançılar artıq bütün beynəlxalq yarışlarda öz gücünü təsdiqləmişlər. Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azərbaycan azarkeşləri də bir növ buna öyrəşiblər. Əminəm ki, idmançılarımız bu dəfə də gözəl nəticə göstərəcəklər.

*Ardı Səh. 4*






# Müsəlman ölkələrindən birlik nümunəsi!

Əvvəli-Səh-3

Artıq birinci qızıl medalımız var". Cənab Prezident bu gözəl nəticənin digər idmançılar üçün də gözəl bir stimul olacağını bildirib.

V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən atletlər idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparır. Azərbaycanı İslamiadada 281 idmançı təmsil edir. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınayırlar.

Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldular. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşdı. Növbəti Oyunların Konyada keçirilməsinin bizim üçün əlavə imkanlar yaradacağını bildirən dövlət başçısı qeyd edib ki, bu Oyunlar həm idman bayramı, həm də İslam həmrəyliyi bayramı kimi yadda qalacaq: "Beş il bundan əvvəl Bakıda keçirilmiş İslam Həmrəyliyi Oyunlarında bizim komandamız çox gözəl nəticə göstərmişdir, komanda hesabında birinci olmuşdur. Eyni zamanda, Bakıdakı Oyunlar İslam həmrəyliyinin güclənməsinə təkan vermişdir. Çünki müsəlman ölkələrinin idmançıları bir müddət bir-biri ilə sıx təmasda olmuşlar. Əminəm ki, burada da siz yeni dostlar tapacaqsınız. Çünki bu Oyunlar həm idman yarışıdır, həm də ki, müsəlman ölkələri arasındakı birliyi, həmrəyliyi, dostluğu möhkəmləndirən amildir".




### "İLK DƏFƏ OLARAQ AZƏRBAYCAN İDMANÇILARI İSLAM HƏMRƏYLİYİ OYUNLARINDA QALİB ÖLKƏNİ TƏMSİL EDƏCƏKLƏR"

Bu gün dövlət tərəfindən idmanın kütləviliyi təmin edilərək ölkədə sağlam nəsl formalaşdırılıb. Bu, sağlam gələcək deməkdir. Gənclik və idman bir-birini tamamlayan məfhumlardır və gənclərimiz təkcə idman sahəsində deyil, bütün sferalarda aktivliyi ilə seçilir. Ölkənin ictimai-siyasi, sosial-iqtisadi həyatında fəal iştirak edirlər.

Müasir dövrümüzdə vətənpərvər ruhda böyüyən Azərbaycan gəncləri 44 günlük Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandanın rəhbərliyi ilə möhtəşəm qələbəniin qazanılmasında böyük şücaət göstərdilər. Artıq Azərbaycan idmançıları mötəbər yarışlarda Qalib xalqın idmançısı kimi təmsil olunurlar. "İlk dəfə olaraq Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında qalib ölkəni təmsil edəcəklər", - deyən Azərbaycan Prezidenti bunun hamımız üçün böyük qürurverici hadisə olduğunu bildirib: "Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu Oyunlarda iştirak edəcəyik. Döyüş meydanlarında əldə edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız".

Əlbəttə ki, Prezident İlham Əliyevin bu sahəyə göstərdiyi qayğı və diqqəti nəticəsində Azərbaycan Respublikası bu gün öz tarixinin çox şərəfli, böyük irəliləyişlər, inkişaf və tərəqqi dövrünü yaşamaqdadır. Azərbaycan idmanı bundan sonra da sürətlə inkişaf edəcək və mötəbər arenalarda bayrağımız əbədi dalğalanacaqdır.



*Nəzakət ƏLƏDDİNQIZI*



# Təbiət ilə harmoniyada olan bir gələcək yaradaq

*Müasir dünyamızı narahat edən məsələlər sırasında ətraf mühitin, planetimizin qorunması yer alır. Beynəlxalq ictimaiyyət, siyasi və elmi dairələr ətraf mühitlə bağlı problemlərin həllində maraqlıdırlar. Dünyada yaşayan insanlar ekoloji problemlərə xüsusi önəm verərək planetimizə görə məsuliyyət daşıyırlar. Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının sədri, Ətraf Mühitin Mühafizəsi Fəaliyyəti üzrə Beynəlxalq Dialoq kampaniyasının təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr sırasında planetimiz üçün əhəmiyyətli olan amillər də diqqətdə saxlanılır.*

Leyla Əliyeva çıxışlarının birində bildirib ki, dünyanın müxtəlif hissələrində iqlim dəyişikliyi, karbon qazı tullantılarının artması, atmosferə atılan istixana qazlarının artımı, okean dəyişkənlikləri, quraqlıqlar və digər humanitar problemlərdən əmələ gələn ekoloji problemlərə gənc nəsil laqeyd qala bilməz. Heydər Əliyev Fondunun vitse-prezidentinin təşəbbüsü ilə yerli və beynəlxalq tərəfdaşlarla birgə mütəmadi olaraq Azərbaycan və regionun su bioresurslarının qorunub saxlanılması, artırılması və mühafizəsi məqsədilə Xəzər sahillərində, Kür və digər çaylarda təmizlik aksiyaları təşkil edilir. IDEA İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən sahilyanı təmizlik aksiyaları dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və bütün gəncləri dəniz ətraf mühitinin mühafizəsi uğrunda mübarizəyə cəlb etmək idi. "Sahillər təmiz qalsın" şüarı altında keçirilən təmizlik aksiyası böyük əhəmiyyətə malikdir.

## ŞƏHƏR EKOLOGİYASININ SÜTUNU OLAN YAŞILLIQLAR BƏRPA OLUNUR

Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində tədbirlər davamlı olaraq reallaşır. Yaşıllıqların şəhər ətrafındakı insanların sosial həyatı və sağlamlığı üçün faydasını nəzər alaraq, İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2017-ci ildən Bakının abadlaşdırmaya ehtiyacı olan həyətləri, parkları və meydançaların bərpasına, yaxşılaşdırılmasına yönəlmiş "Bizim həyət" layihəsi həyata keçirilir. Layihə başlayandan etibarən vətəndaşların müraciətləri nəzərə alınaraq tədbirlər həyata keçirilir. İnsanların abad yerdə, açıq havada vaxt keçirməsinə şərait yaratmağa öz töhfəsini verir. Layihə çərçivəsində daha bir tədbir reallaşıb. Paytaxtımızın bir çox yerlərində abadlaşan həyətlər insanların rahatlığının və istirahətinin təminatından mühüm əhəmiyyətə malikdir. Nərimanov, Yasamal, Binəqədi kimi rayonlarının bəzi yerlərində "Bizim həyət" layihəsi çərçivəsində həyətlər abadlaşıb. Bu günlərdə daha bir həyət sakinlərin ixtiyarına verilib. Belə ki, paytaxtın Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Şamil Kamilov küçəsi 5, 7, 9 və 11 ünvanlarında 850 nəfər sakinin yaşadığı çoxmərtəbəli binaları əhatə edir. Abadlaşdırılan həyətdə əlil və sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə ərazidə süni örtüklü minifutbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaq meydançaları salınıb. Eyni zamanda, ərazidə 4 söhbətgah, çoxsaylı oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları və pişik evləri quraşdırılıb.

Həyətin ərazisindəki yaşıllıqların bərpa olunması ətraf mühitin təmizlənməsinə müsbət təsirini göstərir. 280 ədəd müxtəlifcinsli ağac və minlərlə kol əkilib, 3 min kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb ki, bu da sakinlərin burada istirahətinin təminində mühüm rola malikdir. Əlbəttə ki, "Bizim həyət" layihəsinin əsas məqsədi ölkə ərazisində həyətlərin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpasıdır. Sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılması üçün görülən işləri insanlar məmnunluqla qarşılayırlar. Əlbəttə ki, görülən işlər ətraf mühitin təmizlənməsinə, ekoloji təmizliyə xidmət edir. Leyla Əliyeva fəaliyyətində ətraf mühitin mühafizəsinə, planetimizin üzləşdiyi ekoloji təhlükənin aradan qaldırılmasına davamlı olaraq töhfələr verir. İDEA-nın reallaşdırdığı layihələr sırasında "Daha yaşıl bir Azərbaycan üçün bizə kömək et!" devizi ilə ağacəkmə aksiyası çərçivəsində çoxlu sayda Eldar şamı, Kiparis, Şərq çinarı və digər ağaclar əkilib.






## "BİZ BİR DÜNYA, BİR GƏLƏCƏK NAMİNƏ ÖHDƏMİZƏ DÜŞƏN MƏSULİYYƏTİ ÖZ ÜZƏRİMİZƏ GÖTÜRÜRÜK"

Leyla Əliyeva nəinki Azərbaycan gənclərini, eləcə də bütün dünya gənclərini ekoloji problemlərin həllində həmrəyliyə çağırır: "Bütün dünyada gənclər ətraf mühit problemlərinin aradan qaldırılması yollarını axtarırlar. Həyatımızı təmin edən təbiət ilə harmoniyada olan bir gələcək yaratmaq imkanı öz əlimizdədir. Biz beynəlxalq səviyyədə fəaliyyət göstəririk, çünki ətraf mühit heç bir sərhəd tanımır. Biz hamımız bu işdə birik, qarşıda duran çətin məsələlərin öhdəsindən gəlmək və əla fürsətlər əldə edə bilmək üçün birlikdə çalışmalıyıq. Biz dialoq qurmağa önəm veririk, çünki öyrənməli çox şey var və sağlam dialoq üzərində qurulan əlaqələr həmrəyliyin əsasını təşkil edir. Biz hər şeydən daha çox ətraf mühitin qayğısına qalırıq. Biz fəaliyyətimizdə qətiyyətliyik. Hər kəsi birgə fəaliyyətə çağırırıq, gənclərin bu sahədə praktik addımları bəşəriyyətin ekoloji problemlərinin həllini təmin edə bilər. Biz bir dünya, bir gələcək naminə öhdəmizə düşən məsuliyyəti öz üzərimizə götürürük!"

## "MƏNİM DƏNİZLƏRİM, MƏNİM OKEANLARIM"

Leyla Əliyevanın təşəbbüsü ilə dənizkənarı ərazilərdə mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklərin yaradılmasına başlanılıdı. İlk olaraq belə çimərlik Şıx çimərlik ərazisində dəniz kənarında 6 hektar sahədə yaradıldı. Əvvəllər baxımsız vəziyyətdə olan ərazi təmizlənərək abadlaşdırılıb, vətəndaşların istirahəti üçün bütün şərait yaradılıb. Dəniz kənarına uzanan yola asfalt çəkilib, 3500 kvadratmetr ərazidə avtomobil dayanacağı yaradılaraq asfaltlaşdırılıb. Burada 60 kölgəlik, 6 yerdə soyunub-geyinmə kabinaları, 2 yerdə duş, 2 yerdə 2 kabinalı sanitariya qovşağı, istirahətə gələn vətəndaşların nahar etmələri üçün 2 söhbətgah quraşdırılıb, futbol və voleybol meydançaları yaradılıb. Vətəndaşların istirahətlərinin təşkili üçün çimərlik ərazisinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazi boyunca zibil konteynerləri quraşdırılıb

Görülən işlər bura istirahət üçün üz tutan insanlar tərəfində böyük məmnunluqla qarşılanır. Buzovna və Görədil qəsəbələrində də növbəti çimərliklər yaradılaraq vətəndaşların istifadəsinə verildi. Əvvəllər baxımsız vəziyyətdə olan ərazilər təmizlənərək abadlaşdırılıb, burada tələbata uyğun sayda kölgəlik, soyunub-geyinmə kabinələri, duş, sanitariya qovşaqları, istirahətə gələn vətəndaşların nahar etmələri üçün söhbətgahlar quraşdırılıb, futbol və voleybol meydançaları yaradılıb, dəniz kənarına uzanan yola asfalt çəkilmiş, avtomobil dayanacağı yaradılıb və asfaltlaşdırılıb.Yaradılan ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyini lazımi səviyyədə saxlanılması üçün burada xidmət personalı fəaliyyət göstərir. Əlbəttə ki, paytaxt sakinləri və eləcə də şəhərimizin çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq birliyin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və ictimai çimərliklər yaradıldı.

Bu yaxınlarda Cenevrədə keçirilən "Mənim dənizlərim, mənim okeanlarım" sərgisinin açılışında iştirak edən Leyla Əliyeva bildirib ki, bəşəriyyət çaylara, dənizlərə və okeanlara ciddi zərbə vurur. Qeyd edək ki, sərgi Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin təşəbbüsü, Birləşmiş Millətlər Təşkilatının (BMT) Cenevrə şəhərindəki bölməsi və Azərbaycanın BMT-nin Cenevrə şəhərindəki bölməsi yanında daimi nümayəndəliyinin dəstəyi ilə təşkil edilmişdi. Dünyanın 70 faizindən çox ərazisini tutan su ehtiyatları, dəniz və okeanların ekoloji sisteminin getdikcə daha çox mənfi təsirlərə məruz qaldığı bir zamanda keçirilən sərgidə öz əsərləri ilə iştirak edən rəssamlar, eləcə də sərginin kuratorları bu cür mühüm mövzunu incəsənət vasitəsilə ictimailəşdiriblər.

## "BİZİ, İLK NÖVBƏDƏ, XOŞBƏXT EDƏN ELƏ TƏBİƏTİN ÖZÜDÜR"

Heydər Əliyev Fondunun vitse-prezidenti "Bu sərgi incəsənət vasitəsilə diqqəti bəzi qlobal məsələlərə yönəltmək üçün fürsətdir", - deyərək bildirib ki, IDEA-da biz ətraf mühitin qorunmasının vacibliyi mesajını çatdırmaq üçün həmişə incəsənət və bədii yaradıcılıqdan bəhrələnirik: "Təşkilatımız 2011-ci ildə təbiətimizi və biomüxtəlifliyimizi qorumaq missiyası ilə yaradılmışdır. Biz insanları təhsilə, incəsənətə, musiqiyə, maarifləndirməyə və ən əsası təbiətdə daha çox zaman keçirməyə təşviq etmək istəyirik". IDEA, həmçinin çirklənmə ilə mübarizəyə, heyvanların və dənizlərdə həssas ekosistemin qorunmasına diqqət yetirir. Çünki su bəşəriyyətin varlığı üçün vacibdir, su həyatdır. Qeyd edib ki, son 50 ildə dəniz canlılarının 50 faizinin məhv olduğunu etiraf etmək çox çətindir: "Təbiəti incitsək, bununla biz, ilk növbədə, özümüzə zərər vermiş olarıq. Lakin mən həqiqətən inanıram ki, yoxa çıxan parçaları müsbət düşüncə ilə geri qaytara bilərik. Düşünürəm ki, insanlar nə qədər xoşbəxt olsalar, təbiətə daha çox qayğı göstərərlər. Bizi, ilk növbədə, xoşbəxt edən elə təbiətin özüdür".

**Zümrüd BAYRAMOVA**

# Laçını yandıranlar və yananlar

***Bu gün yenə o gündür. Eynilə ermənilərə işğal etdikləri və 30 il qanunsuz olaraq məskunlaşdıqları, 30 il bu torpaqların yerüstü və yeraltı sərvətlərini taladıqları Azərbaycanın barlı-bərəkətli rayonlarını - Ağdamı, Kəlbəcəri və Laçını tərk etmələri üçün verdiyimiz vaxt. O vaxt biz düşünürdük ki, işğalçı ermənilər gəldikləri kimi də adamlıq, insanlıq edib gedəcəklər, hələ bir üzr də istəyəcəklər, 30 il qonaq qaldıqları üçün, taladıqları və istismar etdikləri üçün. Amma gözləntilərimiz havada qaldı və həm də vəhşiliklə müşaiyyət olunan hadisələr ermənilərin iç üzünü ifşa etdi, nə qədər barbar olduqlarını bütün dünyaya nümayiş etdirdi….***



Bəs əslində nə baş vermişdi, niyə ermənilərin geriyə köç etmələrini bu qədər barbarlıq və vəhşilik kimi qələmə veiririk? Sual doğrudur, cavabı isə çox dəhşətli. Ermənistan 30 ildən artıq idi ki, işğalçı olaraq, torpaqlarımızı zorla ələ keçirərək Kəlbəcərdə, Laçında, Qubadlıda, Zəngilanda, Füzulidə, Cəbrayıl və Ağdamda sanki dədələrindən miras qalmış yurd kimi istifadə edirdilər. Onların işğalçı olaraq qədim yurd yerlərimizə, rayonlarımıza necə hücum etdiklərini yaqin xatırlayanlar az deyil, hadisənin birbaşa şahidləri də minlərlə, yüz minlərlədir. Onlar toplatüfənglə gəlmişdilər, heç kəsə bir əşya götürməyə aman vermirdilər, yubanan öldürülür, qaçıb qurtula bilməyənlər tutulur, əsir aparılır, ən ağır işgəncələrlə öldürülür, kölə kimi kiminsə qapısında işlədilirdi. Bu idi ermənilərin azərbaycanlı qocalara, qadınlara, uşaqlara olan "insani" münasibəti.








Və ən əsası erməni işğalçılarının Azərbaycanın rayonlarını, kənd və qəsəbələrini ələ keçirməsinin bir məqsədi də üzə çıxmışdı. Hələ o zaman bilirdik ki, erməni barbarlarının əsas məqsədi heç də torpaq ələ keçirmək, "Böyük Ermənistan" yaratmaq kimi boş xülyaları gerçəkləşdirmək deyildi. Onların əsas niyyəti azərbaycanlıların boş qalan evlərini talamaq, soymaq, qiymətli əşyalarını xarici bazarlara çıxarmaq, bir sözlə var-dövlət sahibi olmaq idi. Əvvəlcə evdəki qiymətli əşyaları, sonra ev əşyalarını, daha sonra tikinti materiallarını yağmalayıb-qarmalayıb qonşu ölkələrdə satdılar. Evləri kökünə qədər qazıb atdılar, qəbirləri dağıtdılar, milli və dini abidələrimizi tar-mar etdilər, Azərbaycanın izini itirmək üçün min-bir hiyləyə əl atdılar. Dünyanın da gözü kor, qulağı kar oldu, Ermənistana bu qədər qanunsuzluqlara rəğmən gözün üstə qaşın var, demədilər, demək istəmədilər, özlərinə bunu yaraşdırmadılar, din qardaşlarının xətrinə dəymək istəmədilər.

10 noyabr 2020-ci ildə quyruqları qapı arasında qalanda, 44 günlük Vətən müharibəsində "dəmir yumruğ"un zərbəsindən səndirləyəndə yadına beynəlxalq qanunlar düşdü bu ermənilərin. İşğal etdikləri ərazilərdən çıxmaları üçün 1 aya yaxın vaxt verildi onlara, düz bir ay. Halbuki onlar kəlbəcərlilərə, ağdamlılara, laçınlılara heç bir saat da vaxt verməmişdilər. Nədənsə o vaxt ermənilərin yadına özlərinin mələyə-nələyə istədikləri vaxt heç yadlarına da düşmürdü. Azərbaycanlıların qaçaraq öz evlərini tərk etmələrinə, ayaqyalın, başıaçıq imdad diləmələrinə gülərək, şaqqanaq çəkərək reaksiya verirdilər. İndi isə zaman bizim xeyrimizə işləyirdi, torpaqlarımızı tələb edirdik, qalib ölkə kimi. Amma yenə də lənətə gəlmiş humanist hisslər. Yenə ermənilərə yazığımız gəlmişdi, qarşıdakı qış aylarını nəzərə alıb köçüb getmələrinə şərait yaratmışdıq. Dədələrinin, gorbagor olmuşlarının qəbirlərini də bellərinə şələləyib aparmalarına, ermənilər üçün ən qiymətli əşya sayılan unitazlarını da ədəb-ərkanla, xüsusi musiqi sədaları altında sökub aparmalarına imkan vermişdik. Bəs ermənilər bunun əvəzində nə etdilər?

Yazımızın məğzi, əsas qayəsi, ana xətti də budur, ermənilər humanistiyimizdən istifadə edərək azərbaycanlıların dədə-baba torpaqlarında, 30 illik işğal dövründə məskunlaşdıqları yurd yerlərimizdə hansı pəstahadan çıxdılar, hansı vəhşiliyi törətdilər? Əvvəlcə yüzillik ağacları kəsməyə, meşələri qırmağa başladılar, sonra infrastrukturu dağıtdılar, sonunda isə özlərinin də yaşadığı evlərə od vurdular. Niyə? Səbəbi də dəhşətlidir, burada azərbaycanlıların yaşaya bilməməsi üçün. Halbuki, bu barbar xalq 30 il bundan əvvəl Kəlbəcərə, Laçına və Ağdama işğalçıl etdikləri şəhər və kəndlərə yaşamaq üçün gələndə bizim evlərin bir telinə də zərər dəyməmişdi. Əşyaları ilə birlikdə ermənilərə qalmışdı.

Bir hadisəni yada salaq. 1939-cu ildə SSRİ-Fin müharibəsi zamanı sərhədə yaxın fin kəndlərinin birindən əhalinin köçürülməsi haqda hakimiyyət orqanları qərar çıxarır. Köçhaköç başlayır, hər kəs tələsir, bir qadın isə həyətdəki güllərdən yığıb otağın ortasındakı masanın üstündəki gülqabına səliqə ilə qoyur. Əri əsəbləşir ki, biz tələsməliyik, amma sən hələ də heç nə olmamış kimi gül toplayırsan. Qadın sakitcə dillənir, qoy bu evə gələn bolşeviklər görsünlər ki, biz nə qədər sivil insanlarıq. Mən bu hərəkətimlə kimliyimi təsdiq edirəm, bu masada imzamı qoyub gedirəm. Azərbaycanlılar da evlərini eynilə qoyub getmişdilər, qayıdacaqlarına inanıb qapısına vurduqları qıfılların açarlarını da özləri ilə götürmüşdülər

Bu gün ermənilər ikinci dəfə barbarlıq imtahanı verirlər, çox güman ki, bu fənndən də qeyri-məqbul alacaqlar. İmtahanın predmeti isə Laçın rayonunun mərkəzi Laçın şəhəri, Sultan bəyin yurdu Zabux və Sus kəndləridir. Avqustun 25-ə qədər burada qanunsuz məskunlaşan ermənilərə vaxt verilib. Bu tarixdə onlar kəndləri və şəhəri tərk etməlidirlər. Ermənilər onlara verilən bu fürsətdən də yararlanmağa çalışırlar. Ev əşyalarını onlar üçün ayrılmış xüsusi maşınlarla və təmtəraqla daşıyandan sonra evləri yandıracaqlarını bildiriblər. Kəlbəcərdə, Laçında və Ağdamın kəndlərində törətdikləri vəhşiliklər səbəbindən dünyada biabır olduqlarından guya xəcalət çəkən ermənilər bu dəfə fərqli addım atacaqlarını, evləri yandırmayacaqlarını düşünsələr də artıq Laçında, Zabuxda qanunsuz yaşayan ermənilər evlərini yandıracaqları barədə xəbərdarlıqlar ediblər. Məqsəd də eynidir, azərbaycanlılar - türklər bu evlərdə yaşaya bilməsinlər.

Qarabağdakı qanunsuz qurumun nümayəndələrinin həmin ermənilərlə görüşündə bildirilib ki, evlər yandırılmasın. Amma ermənilər öz xislətlərindən əl çəkən deyillər və əllərində məşəl köç gününü gözlədiklərini təsəvvür etmək o qədər də çətin deyil. Yandırmaq, məhv etmək, "mənim olmayan mənimki deyil" prinsipi ilə çıxış etmək ermənilərin boyuna biçilib. Laçının özündən və kəndlərində köçənlərin cəmi 25 faizi Qarabağ ərazisində yaşamağı üstün tutub. Azərbaycanın Qarabağa tam olaraq sahibləncəyi günün uzaqda olmadığını dərk edən əksəriyyət isə üzünü qərbə - Ermənistana tutub. Asta qaçan namərddir, deyib dabanlarına tüpürüblər

***V.VƏLİYEV***

ANALİTİK

# "Dünya Azərbaycan-Türkiyə qardaşlığının daha bir təntənəsinə şahidlik edir"



***"Prezident İlham Əliyev "Hər zaman bir-birimizin yanındayıq və elə etməliyik və edəcəyik ki, qarşıda ancaq yaxşı günlər olsun. Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır" fikirləri ilə Azərbaycan-Türkiyə əlaqələrinin dünəninə baxış fonunda gələcək hədəfləri açıqlayır. Tarixə nəzər salsaq görərik ki, sevincli, kədərli anlarda iki dost ölkə daim bir-birinin yanında olub, eyni mövqedən çıxış edib, dünyaya daim bu çağırışı ediblər ki, ədalət və beynəlxalq hüquq əsasdır.***

Bir məqamı qeyd edək ki, artıq tarixə qovuşan Qarabağ münaqişəsinin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi ucbatından tərkibinin dəyişməsi məsələsi gündəmə gətiriləndə, ən əsası Türkiyənin vasitəçiliyinin vacibliyi vurğulananda Ermənistan bunun mümkünsüzlüyünü bəyan edirdi. Buna əsas kimi Türkiyənin Azərbaycanın yanında olmasını bildirirdi. Reallıq bu idi ki, qardaş ölkə ədalətin, beynəlxalq hüququn yanındadır. Ən yüksək tribunalardan bəyan edir ki, dünya ikili standartlara əsaslanan siyasətə son qoymalı, həqiqətləri olduğu kimi dəyərləndirməlidir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ötən ilin iyun ayında ölkəmizə səfəri zamanı parlamentdəki çıxışında tarixi Zəfərimizin yaratdığı reallıqlar fonunda bildirmişdir ki, bölgənin sülhə ehtiyacı var. Buna nail olmalıyıq. Ermənistan Azərbaycan ilə problemlərini həll etdikcə Türkiyə olaraq biz də lazımi addımları atacağıq. Türkiyə ilə sərhədlərin açılmasının Ermənistana verəcəyi faydalar saymaqla bitməz. Bu Zəfəri hər kəsin ortaq zəfərinə çevirmək bizim əlimizdədir. Bir daha Qafqazın boynuna kimsənin əsarət zənciri vura bilməməsi üçün qarşımıza çıxan fürsətləri hamımız birlikdə ən yaxşı şəkildə dəyərləndirməliyik. Biz bu mübarizəni özümüz və dostlarımızla birlikdə "Dünya beşdən böyükdür" deyərək qlobal səviyyədə də aparırıq". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

Vüqar Rəhimzadə diqqəti tarixi Zəfərimizdən ötən iki ilə yaxın dövr ərzində Azərbaycan və Türkiyənin birgə addımlarına, eyni zamanda, hansısa tarixi gündə, məqamda iki dost ölkənin Prezidentlərinin bir yerdə olmasına, yalnız dövlətlərarası deyil, şəxsi münasibətlərdə də qardaşlıq nümayiş etdirmələrinə yönəldərək bildirib ki, dünyaya səs salan, Türk dünyasının mədəniyyət paytaxtı Şuşanın şahidlik etdiyi Müttəfiqlik Bəyannaməsi bu qardaşlığın sarsılmazlığına xidmət edir. Şuşa Bəyannaməsində yer alan müddəaların icrası istiqamətində tərəflər biri-birindən əhəmiyyətli addımlar atır. Reallıqlarımızın təbliğində əhəmiyyətli rola malik olan mətbuat sahəsində də əməkdaşlığın inkişafına xidmət edən Memorandum imzalandı, ən əsası Ortaq Media Platforması yaradıldı.

"Tarixi köklərə bağlılıq bu dostluğu, qardaşlığı daha da möhkəmləndirir, liderlərin şəxsi münasibətləri bu əməkdaşlığa yeni çalarlar əlavə edir" söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, son aylarda Azərbaycan və Türkiyə Prezidentlərinin birgə iştirakı ilə keçirilən tədbirlərə diqqət yetirək: "Ölkə Prezidenti may ayında Türkiyəyə işgüzar səfəri çərçivəsində Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etdi. Bu səfər Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə reallaşdı. Həmin açılış mərasimində "Biz hər zaman bir yerdəyik - xoş günlərdə, yaxşı günlərdə, çətin günlərdə də və İkinci Qarabağ savaşı bunu bir daha bütün dünyaya göstərdi  İkinci Qarabağ savaşı bizim müştərək, ortaq şanlı tariximizdir" söyləyən dövlət başçısı İlham Əliyev onu da bildirmişdir ki, qardaş Türkiyə gündən-günə güclənir, sürətlə inkişaf edir. Bütün bunların təməlində aparılan uğurlu siyasət, Prezident Rəcəb Tayyib Ərdoğanın böyük əməyi, zəhməti vardır. Türkiyə bu gün nəinki dünya miqyasında böyük güc mərkəzinə çevrilib, söz sahibi olub, eyni zamanda, ölkə daxilində də böyük layihələr icra etməyə qadirdir."

Vüqar Rəhimzadə may ayının 28-də - Müstəqillik Günündə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərindən, eyni zamanda, Azərbaycan Prezidenti ilə birgə "TEXNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalında iştiraklarından bəhs edib. Bildirib ki, artıq hər iki ölkənin gənclərinin gələcək inkişafımıza töhfələr verməsi üçün mühüm addımlar atılır, gənclərimiz daha da yaxınlaşırlar.

"Bugünümüz üçün mühüm olan tarixi hadisə dövlət başçısı İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində iştirak etməsidir. Bu mühüm idman tədbirində öncə dövlət başçısı İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü oldu. Görüş zamanı iki qardaş ölkənin müxtəlif sahələrdə uğurla inkişaf edən əlaqələrindən, postmünaqişə dövrünün reallıqları fonunda görülən işlərdən, eyni zamanda, son günlər Qarabağda yaranan gərginlikdən geniş bəhs olunub. Rəcəb Tayyib Ərdoğan bir daha Türkiyənin dəstəyini ifadə edib. Dövlət başçısı İlham Əliyev Konya şəhərində Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyehi və Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatarı qəbul etmişdir. Söhbət zamanı Türk dünyası xalqlarının bir-biri ilə tarixi bağlılığına söykənən əlaqələrin humanitar, mədəniyyət, təhsil, idman sahələrində genişlənməsinin əhəmiyyətindən bəhs olunmuşdur. Prezident İlham Əliyev, həmçinin V İslam Həmrəyliyi Oyunlarına qatılan Azərbaycan idmançıları ilə görüşmüşdür. Ölkəmizin idman sahəsində qazandığı uğurlardan, idmançılarımızın Azərbaycanın bayrağını yüksəklərə qaldıraraq qazandıqları nəticələrdən danışan dövlət başçısı İlham Əliyev bu məqamı da xüsusi qeyd etmişdir ki, ilk dəfə olaraq İslam Həmrəyliyi Oyunlarında qalib Azərbaycanı təmsil edirsiniz. Bu, hamımız üçün böyük qürurverici hadisədir. Çünki biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu Oyunlarda iştirak edəcəyik. Döyüş meydanlarında əldə edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək", - deyə YAP Xətai rayon təşkilatının sədri bildirib.

Vüqar Rəhimzadə diqqəti, eyni zamanda, V İslam Həmrəyliyi Oyunlarına qatılan ölkələrin və idmançıların say tərkibinə yönəldib: "Avqustun 18-dək davam edəcək V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə aparır. 2017-ci ildə ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunlarında isə 54 ölkədən 3 mindən çox atlet idmanın 24 növü üzrə keçirilən yarışlarda 269 dəst medal uğrunda mübarizə aparmışdı. Bu Oyunlara 425 atletlə qatılan Azərbaycan 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci oldu. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşmışdır. V İslam Həmrəyliyi Oyunlarında iştirakçı dövlətlərin, idmançıların, eyni zamanda, medalların say tərkibində artım Oyunlara diqqət və marağın artdığını göstərməklə yanaşı, İslam dünyası ölkələrinin bir araya gəlmək istəklərini də nümayiş etdirir. Dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu Oyunlar həm idman yarışıdır, həm də ki, müsəlman ölkələri arasındakı birliyi, həmrəyliyi, dostluğu möhkəmləndirən amildir."

YAP Xətai rayon təşkilatının sədri iki dost ölkənin islam həmrəyliyinin möhkəmləndirilməsinə töhfələrindən geniş bəhs edərək bildirib ki, bu Oyunlar həmrəyliyə böyük töhfələr verir. İdmançılarımız yeni dostlar qazanır, həm öz, həm də Oyunların təşkil olunduğu ölkələrin təbliğatçısı qismində çıxış edirlər. Ölkələrin, xalqların daha da yaxınlaşması birliyin, həmrəyliyin möhkəmlənməsinə böyük stimuldur.

Vüqar Rəhimzadə bu ümumiləşdirməni aparıb ki, dünya Azərbaycan-Türkiyə qardaşlığının daha bir təntənəsinə şahidlik edir. Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının açılış mərasimində Azərbaycan və Türkiyə Prezidentlərinin birgə iştirakı qürurverici olmaqla yanaşı, dünyaya qardaşlıq əlaqələrinin davamlı inkişafında etimad, səmimiyyət amillərinin əsas faktor olmasına çağırışdır.

## Baş Prokurorluqda media azadlığı ilə bağlı konfrans təşkil edilib



Dünən Baş Prokurorluğun təşkilatçılığı ilə "Media azadlığı və sosial şəbəkələrin güclənən təsiri şəraitində cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması" mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, Azərbaycanda informasiya mühitinin sağlamlaşdırılması, qeyri-dəqiq və mənbəyi şübhə doğuran məlumatların tirajlanmasının qarşısının alınması məqsədilə təşkil edilmiş konfransda Baş Prokurorun müavini, Medianın İnkişafı Agentliyinin icraçı direktoru, Mətbuat Şurasının sədri, eləcə də nüfuzlu media qurumlarının rəhbərləri, ali təhsil müəssisələri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib.

Konfrans zamanı son dövrlər media sahəsində yol verilən qanun pozuntularına görə tətbiq olunan prokuror təsir tədbiri aktlarının tətbiqi əsasları, nəticələri barədə bəhs edilmiş, jurnalistlərin peşə davranışı qaydalarının tətbiqində mövcud problemlərdən söz açılıb. İşgüzar tədbirdə səmərəli fikir mübadiləsi aparılıb, təkliflər səsləndirilib, bu məzmunlu tədbirlərin düzgün informasiya mübadiləsində mühüm irəliləyişlərə səbəb olacağı qeyd edilib.

***Arzu Qurbanlı***

## "Oyunların məhz Konyada keçirilməsi təsadüfi deyil"



"Bildiyiniz kimi, V İslam Həmrəyliyi Oyunları 2021-ci ildə keçirilməli idi. Lakin qlobal pandemiya səbəbindən yarış bir il təxirə salındı. Oyunların məhz Konyada keçirilməsi isə təsadüfi deyil". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.

Onun sözlərinə görə, qədimdən bəri Konya şəhəri İslam sivilizasiyasının mühüm mərkəzlərindən sayılır: "V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən atletlər idmanın 24 növü üzrə yarışlarda mübarizə aparacaqlar. Ölkəmizi İslamiadada 281 idmançı təmsil edir. Hər birinə uğurlar arzu edirəm. İdman bizim dövlətimizin siyasətində priotet məsələlərdəndir. Bu gün dünyanın müxtəlif ölkələrində, ayrı-ayrı növlər üzrə idmançılarımız bayrağımızı zirvələrə qaldırıb.

Bütün bu nailiyyətlərin arxasında isə cənab Prezidentin ölkə idmanına və idmançılara olan diqqət və qayğısı dayanır. Bunun da bariz nümunəsi ölkə başçısının Konya şəhərinə çatan kimi Azərbaycanı bu yarışlarda təmsil edəcək olan idmançılarla görüşməsidir. Cənab Prezidentin özü də qeyd etdiyi kimi, artıq bu ənənə halını alıb, demək olar ki, əksər beynəlxalq yarışlarda Prezidentimiz idmançılarla görüşüb, onları qələbəyə daha da ruhlandırır".

Deputat sözlərinə belə davam edib: "Avqustun 9-da V İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış mərasimi keçirildi. Demək olar ki, açılış mərasimi Türkiyənin qədim tarixini əks etdirdi. Doğrudur, qardaş ölkənin şanlı tarixi bu mərasimə sığmasa da, az da olsa, Türkiyənin gücü nüfuzu nümayiş olundu. Bu, sadəcə, yarış xatirinə keçirilmir, türk-islam dövlətlərinin birliyini, nüfuzunu dünyaya çatdırmaq üçün də bir vasitədir. Bu gün Azərbaycan-Türkiyə qardaşlığının möhkəmliyi, bağlılığı bir daha bütün dünyaya nümayiş olundu".

***Ayşən Vəli***



# Erməni barbarlığının növbəti sübutu:

## Arayikin "nümayəndəsi" erməniləri Laçındakı evləri yandırmağa ÇAĞIRDI

***Bu gün terrorçu və işğalçı Ermənistanın barbarlığı, vandallığı heç də təəccüb də doğurmur. Çünki terrorçu Ermənistan bütün dünyada işğalçılıq siyasəti ilə qəbul edilir. Azərbaycan isə həmişə haqq və ədalətin bərpası uğrunda mübarizə aparıb. Sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin Azərbaycana qarşı İkinci Vətən Müharibəsində Ali Baş Komandanımız, Prezident İlham Əliyev diplomatik siyasəti, Müzəffər Ordumuzun gücü, rəşadətli əsgər və zabitlərimizin şücaəti nəticəsində işğal altında olan torpaqlarımızın həsrətinə noyabrın 10-da son qoyuldu.***

Qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Ordusu Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın etdi, uzun illər ərzində işğal olunan Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavənd rayonunun böyük hissəsini, Laçın rayonunun bir sıra kəndlərini işğaldan azad etdi. Beləliklə, 44 gün ərzində Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuz bütün dünyaya öz qüdrətini, gücünü nümayiş etdirdi. Noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad olunası barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Beləliklə, hərbi əməliyyatlar zamanı darmadağın edilən düşmən Prezident İlham Əliyevin irəli sürdüyü şərtləri qəbul edərək, məğlubiyyətini etiraf etdi. Bu, Azərbaycan xalqının şanlı qələbəsidir.



### ERMƏNİ VANDALİZMİ ONLARIN FAŞİST MAHİYYƏTİNDƏN İRƏLİ GƏLİR

Bu gün də erməni fandalizminin davam etməsi onların faşist mahiyyətindən irəli gəlir. Qarabağ və ətraf rayonlarımızı işğal altında saxladığı illərdə Ermənistanın yaşayış məntəqələrimizi xarabalığa çevirməsi, bütün infrastrukturu dağıtması, məscidlərimizi, qəbiristanlıqlarımızı təhqir etməsi, tarix və mədəniyyət abidələrimizi yer üzündən silməyə cəhd göstərməsi və bu günlərdə separatçı-terrorçuların rəhbəri Arayik Arutunyanın "nümayəndəsi" erməniləri Laçındakı evləri yandırmağa çağırışı bir daha ermənilərin faşist mahiyyətindən irəli gəldiyinin göstəricisidir. Belə ki, Qarabağdakı Rusiya hərbçilərinin müvəqqəti nəzarətində yerləşən Laçın şəhəri, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşan ermənilər narahat günlər yaşayırlar. Ermənistan mediası yazır ki, Qarabağdakı separatçı rejimin "ərazi və infrastruktur naziri" Hayk Xanumyan Laçın şəhəri, Zabux və Sus kəndlərində yaşayanlara evləri tərk etmək üçün avqustun 25-dək vaxt verildiyini deyib. Ermənistan mediasına görə, sözügedən yerlərdə yaşayan ermənilər bildiriblər ki, "Laçın dəhlizi" avqustun 25-də Azərbaycanın nəzarətinə keçəcəyindən həmin yaşayış məntəqələri boşaldılır. Həmçinin bildirilir ki, Qarabağdakı separatçılar Laçın şəhəri, Zabux və Sus kəndlərində təxribatlar törətməyə çalışırlar. Belə ki, separatçı-terrorçuların rəhbəri Arayik Arutunyanın "xüsusi nümayəndəsi" Vahan Badasyan "Hraparak" qəzetinə bildirib ki, Laçın şəhəri, Zabux və Sus kəndlərindəki ermənilər yaşadıqları evləri tərk edərkən onları yandırmalıdırlar. Azərbaycan tərəfi "Laçın dəhlizi"nə alternativ çəkilən yeni yolda işləri yekunlaşdırmaq üzrədir. Tikinti işləri bitəndən sonra Rusiya sülhməramlı qüvvələrinin "Laçın dəhlizi"ndən yeni yola keçirilməsi nəzərdə tutulur. "Laçın dəhlizi"nə alternativ olan 32 kilometrlik yeni yolun inşası Rusiya, Ermənistan və Azərbaycan arasında imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda öz əksini tapıb. Sənədə görə, Laçından yan keçən və Qarabağın dağlıq hissəsini Ermənistanla birləşdirən yeni yol 3 il ərzində hazır olmalıdır. Xankəndini Ermənistanla birləşdirəcək Laçın şəhərindən yan keçən yeni yol istifadəyə veriləndən sonra Laçın şəhəri və rayonun hazırda rusların nəzarətində qalmış kəndləri Azərbaycanın nəzarətinə qaytarılacaq. Söhbət "Laçın dəhlizi" adlandırılan 5 kilometr enindəki zolaqda yerləşən Laçın şəhəri və rayonun 6 kəndi - Qarıkaha, Ağanus, Fətəlipəyə, Kəravuz, Sus, Zabuxdan gedir. Hazırda bu yaşayış məntəqələrinin 3-də - Laçın şəhəri, Zabux və Sus kəndlərində ermənilər qanunsuz məskunlaşıblar. Bu baxımdan da, Qarabağdakı Rusiya hərbçilərinin müvəqqəti nəzarətində yerləşən Laçın şəhəri, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşan ermənilər narahat günlər yaşayırlar. Göründüyü kimi, tarixinə hörmətsizlik nümayiş etdirilməsi təcavüzkarın təkcə Azərbaycana deyil, bütün dünya sivilizasiyasına nifrətindən xəbər verir. Bu, erməni vandalizminin hədd-hüdudunun, miqyasının olmadığını göstərir, işğalçının xislətindən, faşizm mahiyyətindən irəli gəlir. Çünki ermənilər tərəfindən bu cür barbar əməllər törədilməklə -azərbaycanlılara aid maddi-mədəni irs yerlə bir edilməklə soydaşlarımızın bu ərazilərdəki tarixiliyinin, mədəni kimliyinin itirilməsi məqsədi güdülüb. Xüsusi əhəmiyyətə malik unikal abidələrə belə vəhşi münasibət dünya mədəni irsinə qarşı yönələn təhdid olmaqla bərabər, həm də azərbaycanlılara yönələn kin-küdurəti,





nifrəti ifadə edib. Beynəlxalq təşkilatlar, dünya birliyi tərəfindən isə insanlığa qarşı bu cür bəşəri cinayətlər təəssüf ki, susqunluqla qarşılanıb. Ancaq bu işğalçı dövlət anlamalıdır ki, onların bütün bu vandal, barbar əməlləri dövlətimizin gücü ilə aradan qaldırılacaq, dağıdılan maddi-mədəni irsimiz yenidən bərpa olunacaq. Prezident İlham Əliyevin işğaldan azad edilən rayonlara səfərləri zamanı etdiyi çıxışlarda səsləndirdiyi fikirlərdə də bu məqam xüsusi yer tutur. Dövlətimizin başçısının vurğuladığı kimi, necə birlik, həmrəylik göstərib torpaqlarımızı azad etdik, həmin birlik sayəsində də bərpa, quruculuq işlərini həyata keçirəcəyik. Ərazilərimiz bərpa planına uyğun olaraq yenə də əvvəlki vəziyyətinə qayıdacaq, torpaqların potensial imkanından istifadə edilməklə regional inkişaf proqramlarının uğurlu icrası daha da sürətlənəcək, Qarabağın yaraları sağaldılacaq, bu ərazilər cənnət məkana çevriləcək. Ölkə başçımız, Ali Baş Komandan cənab İlham Əliyevin Ermənistana dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq Ermənistan hakimiyyəti bu xəbərdarlıqlardan heç bir nəticə çıxarmır. Ermənistan hakimiyyəti, erməni xalqı və revanşist erməni qüvvələri birmənalı şəkildə anlamalıdır ki, törətdikləri istənilən təxribatın qarşısı müzəffər və qalib Azərbaycan ordusu tərəfindən layiqincə alınacaqdır. Avqustun 3-də Müzəffər Azərbaycan Ordusu tərəfindən həyata keçirilən "Qisas" əməliyyatı da bir daha bu deyilənlərə bariz sübutdur. Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdıldı, xeyli sayda qanunsuz erməni silahlı dəstələrinin canlı qüvvəsi məhv edildi və yaralandı, düşmənin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edildi. Ermənistan hakimiyyəti bir daha anlamalıdır ki, "Dəmir Yumruq" yerindədir və istənilən zaman başlarına enə bilər. Yaxşı olardı ki, İkinci Qarabağ müharibəsindəki biabırçı və ağır məğlubiyyətlərini unutmasınlar. Baş verən bütün təxribatların qarşısı rəşadətli Azərbaycan ordusu tərəfindən layiqincə alınacaqdır və təxribat xarakterli addımlar Ermənistanı peşman edəcəkdir. Bəşəriyyətə qarşı mənfur əməlləri ilə özlərini gələcəksizliyə məhkum etmiş ermənilərin dağıdıcılıq əməlləri isə cavabsız qalmayacaq. Onlar bu vəhşiliyə görə beynəlxalq məhkəmələr qarşısında cavab verməli olacaqlar. Azərbaycan 30 ilə yaxın dövr ərzində bu vəhşiliyi törətmiş Ermənistana qarşı təzminat davası açacaq. Ermənistan illərlə törətdiyi başqa cinayət əməlləri kimi, bu dağıntılara görə də cavab verməli olacaq. Çünki bizim apardığımız dava təkcə torpaqlarımızın azadlığı uğrunda deyil. Bu, bir haqq davasıdır. Ədalətin bərpası uğrunda aparılan savaşdır. Baş verən bütün təxribatların qarşısı rəşadətli Azərbaycan Ordusu tərəfindən layiqincə alınacaqdır və təxribat xarakterli addımlar Ermənistanı peşman edəcək.

**Rəfiqə HÜSEYNOVA**

# COVID-19 pandemiyası insan qatilinə çevrilib




### Dünyada koronavirusdan ölənlərin sayı isə 6,41 milyonu ötüb

Pandemiyanın ilk günlərindən dünyada cərəyan edən proseslər, ölkələrin və ÜST-ün müəyyən etdiyi qaydalara və mübarizə metodlarına riayət edilməsi göstərdi ki, yoluxma riski və ölüm faktları bütün ölkələrdə eyni deyil. Əlbəttə ki, insanların, bütünlükdə dünyanın bu vəziyyətdən çıxmasının ən əsas şərtlərindən biri birlik və həmrəylikdir ki, Azərbaycan ilk gündən bunu nümayiş etdirdi. Azərbaycanda COVID-19 virusunun aşkar olunmasından bir neçə ay sonra, ölkəmizdə Vətən müharibəsinin başlanılmasına baxmayaraq, yeni növ koronavirus pandemiyası ilə mübarizə istiqamətində davamlı tədbirlər həyata keçirilməyə başlanıldı. Ölkəmizdə dövlət səviyyəsində həyata keçirilən tədbirlər virusu minuma endirmək məqsədi daşısa da, hələ də bu virusa tam qalib gələ bilməmişik. Ölkəmizdə pandemiya ilə mübarizə üçün zəruri infrastruktur yaradılması, bütün texniki-təşkilati məsələlər uğurla həllini tapmış olsa da "COVID-19" pandemiyası insanları narahat edən məsələ olaraq hələ də qalır.

### ƏN ÇOX ÖLÜM HALI - 1 021 995 ABŞ-DA QEYDƏ ALINIB

Onu da xüsusi olaraq qeyd edək ki, bu gün artıq dünyada koronavirusa yoluxma hallarının təsdiqlənmiş sayı - Ümumdünya Səhiyyə Təşkilatının məlumatına istinadən, 580 milyonu, bu xəstəlikdən ölənlərin sayı isə 6,41 milyonu ötüb. Təşkilatın statistikası yalnız dövlətlər tərəfindən verilən yoluxmuş və ölənlər haqqında rəsmi təsdiqlənmiş məlumatlara əsaslanır. Yoluxma sayında 500 milyonluq hədd aprelin 14-də, 400 milyonluq hədd - fevralın 10-da, 300 milyonluq hədd - yanvarın 8-də, 200 milyonluq hədd isə keçən il avqustun 5-də qeydə alınıb. Onlardan 90 706 508 ABŞ-da qeydə alınıb. Daha sonra Hindistan (44 161 899), Braziliya (33 924 061), Fransa (33 061 414) və Almaniya (31 228 322) yer alıblar. Ən çox ölüm halı da - 1 021 995 ABŞ-da qeydə alınıb, ikinci yerdə - Braziliya (679 275), üçüncü yerdə - Hindistan (526 730) qərarlaşıb. Daha sonra Rusiya (382 786) və Meksika (328 006) yer alıblar.

### AZƏRBAYCANDA VURULAN VAKSİN DOZALARININ ÜMUMİ SAYI 13 MİLYONU KEÇİB

Azərbaycanda isə indiyədək ölkədə ümumilikdə 802 min 60 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 789 min 147 nəfər müalicə olunaraq sağalıb, 9 min 761 nəfər vəfat edib. Təbii ki, COVID-19-la mübarizədə qalib gəlmək üçün virus əleyhinə peyvəndlənmənin vacibliyini nəzərə alan Azərbaycan vaksinasiyaya start verən Avropa İttifaqından bir ay sonra Azərbaycanda bu prosesə başlamış oldu. Ölkəmizdə koronavirus əleyhinə vaksinasiya prosesi 2021-ci il yanvarın 18-də start götürdü. Bu proses 2021-2022-ci illər üçün təsdiqlənmiş Vaksinasiya Strategiyası çərçivəsində davam etdirilir.

Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 829 min 30, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 368 min 516, ikinci mərhələ üzrə 4 milyon 858 min 863, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 345 min 733, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 255 min 918-dir.

Mütəxəssislərin qənaətinə görə, "Buster" dozanın əsas məqsədi orqanizmdə koronavirus əleyhinə yaranmış anticisim sintezini sürətləndirməkdir. Qüvvətləndirici doza qanda anticisimlərin yüksək səviyyədə qalmasına təminat verir. "Buster" doza xüsusilə xəstələnən zaman xəstəni kəskin ağırlaşmalardan qoruyur. Ona görə də risk qrupuna daxil olan vətəndaşların koronavirus əleyhinə "Buster" doza vurdurması mütəxəssislər tərəfindən tövsiyə edilir.

Koronavirusun bu gün hələ də insan qatilinə çevrildiyini nəzərə alaraq hər kəs daha da məsuliyyətli olmalıyıq. Heç şübhəsiz ki, vaksinasiya olunaraq və gigiyenik qaydalara əməl etməklə bu bəladan qorunmaq mümkündür. Ələbəttə ki, peyvənd vurdurduqdan sonra belə, özünümühafizə qaydalarına əməl etmək lazımdır. Dezinfeksiya məhlullarından istifadə etmək, sosial məsafəni qorumaq vacib şərtdir.

Dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışı pandemiyaya qarşı mübarizədə hər kəsi həmrəy olmağa səsləyir və hər bir insanın tələb olunan qaydalara əməl etməsi onun vətəndaşlıq məsuliyyətidir. Azərbaycanda epidemiya daim nəzarət altındadır. Dövlətimiz tərəfindən mütəmadi olaraq reallaşan tədbirlər öz bəhrəsini verir.

***Nəzakət ƏLƏDDİNQIZI***

TƏHLİL

# "Türkiyə və Azərbaycan eyni gözlə baxır"



## POLİTOLOQ AÇIQLADI

***"Azərbaycan Türkiyə münasibətləri həqiqətəndə ən yüksək səviyyədədir". Bu sözləri SİA-ya açılamasında Politoloq İlqar Vəlizadə deyib.***

Politoloq İlqar Vəlizadə bildirir ki, münasibətlər dayanmadan irəliləyir və inkişaf edir: "Buna səbəb geosiyasi amillərdir. Hansı ki, ikitərəfli münasibətlərin daha da inkişaf etməsinə təkan verir. Digər tərəfdəndə qarşılıqlı iqtisadi layihələrin reallaşdırılmasıdır ki, bu iqtisadi layihələr həm Türkiyə, həm də bölgə üçün önəmlidir. Hər iki ölkənin sosial iqtisadi rifahını təmin edir. Digər tərəfdən, əlbəttə ki, ikitərəfli münasibətlər təhlükəsizlik baxımından çox vacibdir. Burda Ankara və Bakı müxtəlif səviyyələrdə çox sıx əməkdaşlıq edirlər. Yəni həm hərbi sahəsində, həm təhlükəsizlik sahəsində bu əməkdaşlıq öz bəhrəsini verib. Əlbəttə, Türkiyə və Azərbaycan münasibətlərinin yaxşı olduğunu göstərən digər amil budur ki, hər iki ölkə qardaş xalqdır. Onları vahid dil, vahid din, vahid ənənələr, vahid mədəniyyət birləşdirir".

Politoloq fikirlərinə əlavə edərək bildirib ki, eyni zamanda son illər ərzində iki tərəfdə də müəyyən qarşılıqlı vahid ideoloji yanaşmada özünü göstərir: "Müxtəlif mürəkkəb geosiyasi proseslərə Türkiyə və Azərbaycan eyni gözlə baxır. Bu baximdan iki ölkə öz siyasətlərini və baxışlarını uzlaşdırır. Bu uzlaşma bütün proseslərin ahəngliyini təşkil edir. İqtisadi ,humanitar,siyasi əlaqələrinin ahəngliyini təşkil edərək gələcəyə addımlayırıq".

***Qönçə Quliyeva***

# Evin tək övladı hərbi xidmətə getməlidir?

**HƏRBİ EKSPERT AÇIQLADI**



"Evin tək uşaqlarının hərbi xidmətə çağırılması Azərbaycan qanunvericiliyinə uyğundur". Bu fikirləri SİA-ya açıqlamasında hərbi ekspert Ədalət Verdiyev bildirib.

Onun sözlərinə görə, hazırda Azərbaycanda 12 faiz ailələr yalnız tək oğlan uşağına malikdir: "Belə olan halda onların hərbi çağırışdan saxlanılması üçün veriləcək hər hansı bir qərar Azərbaycanın təhlükəsizliyi baxımından yanlış bir qərar olardı. Digər tərəfdən isə belə bir qərar digər ailələrin də tək oğul övladı ilə kifayətlənməsi ilə nəticələnər ki, bu da Azərbaycanda əhali artımını minimallaşdıra bilər. Bu hər iki ehtimal Azərbaycanın milli və dövlət maraqlarına uyğun deyil. İstənilən halda hər bir şəxsiyyət unikaldır, onun təkrarı və bənzəri yoxdur. Ailədə bir övlad da olsa, 2 övlad da olsa Azərbaycanımız üçün öz hərbi vəzifəsini yerinə yetirməyə borcludur. Hesab edirəm ki, Azərbaycan gənclərinin özləri də bu qərarı dəstəkləməzlər. Çünki bu qərarda bir diskriminasiya məsələsi də var. "Niyə mənim qohumum vətəni qoruyur, amma mən qoruya bilmirəm" deyə cavanlarımız bunu fikirləşirlər. Məsələnin digər tərəfi də budur. Evin tək övladının hərbi xidmətə aparılması məsələsi hazırda Azərbaycan Respublikasında gündəm deyil. Uzun illərdir ki, bu qayda qüvvədədir və bu qayda effektiv şəkildə işləyir".

***Abutel İlhamqızı***



# Məhv etdiyimiz adətlərimizdən biri - Xınayaxdı...

*Təxminən 40-50 il öncəyə nəzər salsaq, o dövrkü adət-ənənələrimizdən əsər-əlamət qalmadığını açıqca görə bilərik. O adət-ənənələri biz öz əllərimizlə məhv edib tarixin arxivinə gömmüşük. Götürək toylarımızı. Qeyd etdiyim zamandan bu günə kimi görün bir nələr dəyişib. Nə üçün dəyişib? Bunları dəyişməyə kimin haqqı var? Biz adət-ənənələrimizə nə üçün sahib çıxmırıq, onların dəyişməsinə nə üçün göz yumuruq? Bunun hansı faciə ilə nəticələnəcəyini niyə dərk etmirik?*





Bu gün Azərbaycan toyunun ən maraqlı mərasimindən-xınayaxdıdan danışmaq istəyirəm. O xınayaxdı ki, artıq bizim olmayan xınayaxdıya çevrilib. Müasir xınayaxdı mərasimlərində adam özünü heç də Azərbaycanda hiss etmir...

## Müasir xınayaxdılar, yoxsa toy?..

Müasir dövrümüzün xınayaxdı mərasimləri toy kimi keçirilir. Onsuz da anormal şəkildə ayırdığımız qız və oğlan toylarına yeni bir toy da əlavə etmişik ki, bu da xınayaxdıdır. Beləliklə bir valideyn qızına üç dəfə toy etmiş olur. Birinci nişan, bunun üçün restoranda bir toy edir. İkinci xınayaxdıdır ki, bu da xərcinə görə heç də nişandan geri qalmır. Üçüncü isə qız toyudur ki, bununla valideyn vəzifəsini bitmiş hesab edir.

Lakin düşünəndə günah biz valideynlərdədir. Adət-ənənələri dəyişən də, qədimliyimizin üstündən xətt çəkən də, övladlarımızın bütün istəklərinə yox deməyi bacarmayan da bizlərik. Hansı ki, lap əvvəldən biz elə edərdik, adətlərimiz bu qədər məhv uğrayıb, hazırda ölüm yatağına düşməzdi.

Faktlara baxaq. Bizdə belə bir prinsip var ki, qonşudan geri qalma. Biz qonşulardan, qohumlardan seçilməmək üçün nə edirik? Banklara üz tuturuq. Kredit götürürük, illərlə borc ödəyirik, götürdüyümüz pulun faizi gəlib özünə bərabər olur, lakin biz qonşudan geri qalmamaq üçün, necə deyərlər, əynimizdən, boğazımızdan kəsib bunu edirik. Nədir, nədir ki, heç kimdən seçilməyim. Bu gün adamlar tanıyıram ki, övladının ailə qurmasından 3-4 il ötüb, iki nəvəsi var, hələ də kredit ödəyir. Biz özümüzü nə üçün bu qədər əzaba düçar edirik, anlamıram.

Gələk toya bərabər xınayaxdılara. Əsla bu qədər təmtərağa ehtiyacı olmayan bu mərasim kimlərinsə cibinin dolması, kimlərinsə illərlə borc ödəməsi mərasimidir. Buna ehtiyac varmı? Bəlkə də bu xınayaxdılarda adət-ənənələrimiz qorunsa, yaşadılsa, haradasa demək olardı ki, qoy belə keçirək, təki adətlərimiz yaşasın. Lakin bugünkü xınayaxdılar bu mərasimi məhv edib, gömüb, üzərində yeni, bahalı bir mərasim yaradıb.

Xınayaxdı üçün nə etməlisən? Əvvəlcə bu mərasimi keçirmək üçün müəyyən bir məkan seçməlisən. Məkan da ki, istənilən qədər, xınayaxdıların təşkili işləri ilə məşğul olanlar onlarla... Hər biri ayrı-ayrı baha qiymətlərə başa gələn bütün aksesuarlar öz yerində olmalıdır. Yəni qədimliyi özündə əks etdirən samovar, butalar, döşəkcələr və sair. Maraqlıdır ki, müasir xınayaxdılarımızda qədimliyimizi əks etdirən tək bu rəmzlərdir. Vəssalam.

Daha sonra geyim, rəqqasə, aparıcı, bilmirəm daha nələr, nələr, gəlir bir toyun qiymətinə çıxır. Lakin əvvəl necə idi? Çox az xərclə başa gələn xınayaxdılarda həm də gözəl adətlərimiz qorunub yaşadılırdı.

## Əvvəlki xınayaxdılar

Toydan bir gün əvvəl keçirilirdi xınayaxdı. Adətən də axşamlar olurdu. Oğlan evində toy vaxtı 10-15 nəfər qız-gəlin yığışıb qız evinə gedərdi. Qızın evinə çatmağa xeyli qalmış maşınlardan enər, haxışta deyə-deyə toy evinə yaxınlaşardılar. Bütün qonşular bilərdilər ki, filankəsin qızının xınayaxdı gecəsidir. Qonaqlar həyətdə bir saatadək rəqs edər, sonra içəriyə keçərdilər.

Toyu olan qızı bəzədilmiş stula əyləşdirər, həm oğlan, həm də qız evindən olan qızlar, qadınlar onun ətrafına toplaşar, haxışta yarışına başlayardılar:

Oğlan evi:
Al almağa gəlmişik, haxışta
Şal almağa gəlmişik, haxışta
Oğlanın adamıyıq, haxışta
Aparmağa gəlmişik, haxışta
Qız evi:
Al almağın vaxtı var, haxışta,
Şal almağın vaxtı var, haxışta.
Oğlanın adamısız, haxışta,
Aparmağın vaxtı var, haxışta
Oğlan evi:
Günay oturub daş üstə, haxışta
Saçın töküb diz üstə, haxışta
Murad deyir, dur gedək, haxışta
Günay deyir, baş üstə, haxışta
Qız evi:
Murad oturub daş üstə, haxışta
Gözün dikib yol üstə, haxışta
Günayı görən kimi, haxışta
Çıxır yolunun üstə, haxışta

Bu cür deyişmələrdən sonra deyib-gülər, yenə də rəqs edib, gəlinin əl-ayağına xına yaxar, bir ovcuna nişanlısının, bir ovcuna öz adının baş hərfini yazardılar. Xına yaxan qadına ənənəvi olaraq kiçik hədiyyə verilərdi. Gəlinə xına yaxıldıqdan sonra mərasimdə iştirak edən hər kəs barmağını həmin xınaya batırardı.

Ortalıqda qoyulan masada şirniyyatlardan ibarət süfrə açılardı. Kim istəyərdisə, həmin şirniyyatların dadına baxar, konfetlərdən uşaqlara aparardılar ki, onlara da qismət olsun.

Xınadan oğlan üçün də götürüb qayıdardılar. Beləliklə də ucuz başa gələn və gözəl adət-ənənələrimizlə zəngin xınayaxdı mərasimi başa çatardı.

## Xına naxışlı əllər

Bəli, əvvəllər sadəcə xınaya barmaq batırılardı. Lakin indi necədir? İndi ərə gedən qızın əl-ayağına xına ilə xüsusi naxışlar işlənir. Axı biz ta qədimdən gələn xınayaxdılarımızda belə naxış işləmələri görməmişik. Bu naxışlar haradan gəlib adətlərimizi sıxışdırıb bir kənara atdı?

Əvvəllər dəfələrlə təsadüf etmişik ki, qızlarımız xınanın lap incə şəkildə çəkilməsini istəyiblər. Çünki incə, zərif çəkilən xına gəlinin əllərində daha gözəl görünürdü, nəinki əllərin tamamilə xınaya batırılması. Həm də xına əldən çox uzun bir zamana gedir. Qızlarımız toydan sonra işə qayıdanadək əllərindən xınanın getməsi üçün onun incə çəkilməsini istəyirdilər. Bu da bir abır-həya, ismətin göstəricisi idi. İndi də xınanı naxışsız, incə çəkilməsini istəyən qızlarımız var. Lakin naxışlarla daha tez-tez qarşılaşırıq. Toydan bir neçə həftələr sonra da küçədə-bacada əlləri naxışlı gəlinlərlə qarşılaşanda bilirsən ki, hə, bu, təzə gəlindir.

Lakin xınanın bu cür bayağı çəkilməsinə ehtiyac varmı? Yəni o dövrlərdə də naxış işləyə biləcək qadınlarımız vardı. Onlar arasında ağ parça üzərində ipək saplarla naxış toxuyanlar vardı ki, necə deyərlər, iki göz istəyirdi tamaşa etsin. Həmin tikmələr bu gün də evlərimizdə qorunub saxlanmaqdadır. Həmin qadınlar parçaya vurduqları naxışları əllərə də vura bilərdilər. Lakin bu, nə məna izhar edir, nə üçün olmalıdır ki? Axı bu, bizim xınayaxdı adətlərimizə məxsus deyil. Nə üçün bu naxışların əllərimizə vurulmasına razılıq veririk. Bu yenilik nəyimizə lazımdır. Eybəcər görünməkdən başqa nəyi ifadə edir?

Deməli, bu naxışları vurub pul qazananlar deyil, biz öz adətlərimizdən imtina edirik. Belə bayağılıqlara yol açan bizlərik. Təbii ki, bunları bizə zorla etmirlər, biz istəyirik, edirlər.

*Ardı Səh. 11*

JURNALİST YANAŞMASI

# Məhv etdiyimiz adətlərimizdən biri - Xınayaxdı...

Əvvəli-Səh-10

Bir ağbirçək, bir ağsaqqal irəliyə çıxıb demir ki, ay gənc qız, ay bala, bu axı bizim adətdə yoxdur...

### Yüksək-yüksək təpələrə ev qurmasınlar...

Bu gün xınayaxdı mərasimlərimizdə ən çox narahatlığımıza səbəb olan bu türkünün səsləndirilməsidir: yüksək-yüksək təpələrə ev qurmasınlar, uzaq-uzaq məmləkətə qız verməsinlər, anasının bir dənəsini xor görməsinlər.

Türkiyə ilə biz qədim qonşuluq, dostluq əlaqələri olan xalqlarıq.







Bəzi adət-ənənələrimizdə də çox oxşarlıq var. Lakin bu, o demək deyil ki, biz özümüzün gözəl ənənələri olan xınayaxdı mərasimlərimizi dəyişib türklərin xınayaxdı mərasimlərinə bənzədək.

İndi qızların hamısı öz xınayaxdılarında türklərdəki kimi rəfiqələri ilə bu türkünün ssenarisini qururlar. Sual olunur, görəsən, Türkiyənin hansısa bir məmləkətində xınayaxdı mərasimlərinə bizim haxıştaları əlavə edərlər? Və yaxud da bu türkünü bir kənara atıb haxışta deyərlər? Xeyr, etməzlər. Çünki onlar adət-ənənələrinə bizdən qat-qat bağlıdırlar. Biz isə harada nə görürüksə, nədən xoşumuz gəlirsə, öz adətlərimizi bir kənara qoyub, ona meyl edirik.

Maraqlıdır, görəsən bu türküdən yana ürəkləri axan qızlarımızın on nəfərindən biri onun tarixi barədə məlumatlıdır. İnanın ki, yox. Sadəcə, onun ssenarisi xoşlarına gəlib və xınayaxdılarımıza daxil edilib. Əslində isə, bu türkünün kədərli bir tarixi var. Bizdə isə belədir ki, ay aman, bunu etmə, düşər-düşməzi olar. Biz nə edirik? Evimizə gəlin gələndə onun qucağına oğlan uşağını oturduruq, qız yox. Ona görə belə edirik ki, ilki oğlan olsun, qız yox.

Qıza ikinci dərəcəli övlad kimi baxırıq. Təzə gəlin ilk dəfə evdən çıxanda, o yana, bu yana boylanırıq ki, filan qonşu qarşısına çıxmasın, sonsuzdur, düşər-düşməzi olar. Bəs bilsələr ki, bu türkü necə bir acı sonluğun məhsuludur, inanın valideynlər birdəfəlik bunu xınayaxdılardan yığışdırar. Deməli, biz nəyinsə mahiyyətinə varmırıq, sadəcə görüntüsünə vurulur, öz adətlərimizi əllərimizlə bir kənara itələyib, ona meydan açırıq.

Yeri gəlmişkən, Türkiyədə bu türkü yəqin ki, xınayaxdılarda o bədbəxt taleli qızın xatirəsini anmaq naminə hər dəfə səsləndirilir. Bizim də bəxtsiz Saramız var. Onun taleyi ilə bağlı gözəl də mahnı yazılıb. Belə isə nə üçün ən xoş günlərimizdə Saranı anmırıq, Zeynəbi anırıq?.. Yenə deyirəm, dünyanın harasında olursa olsun, bir qadının acı taleyi qadın olan hər kəsin acısıdır. Lakin adət-ənənələrimiz hər şeydən öndədir, bunu unutmayaq!

### Xına bitir, dərd bitmir...

Bəli əvvəlcə nişan, sonra xına, sonda toy... Bu üç mərasim minlərlə manata başa gəlir. Hər üçündə də süfrələr açırıq haradan haraya. Üzərinə də nemətlər düzürük, hər növdə, hər çeşiddə. Adımıza layiq olmasını istəyirik. "Qonşu belə toy etmişdi, niyə mən ondan kəsirəm?" təfəkkürü bizi məhv etməkdədir. Bu təfəkkürlə yaşaya-yaşaya, bir-birimizlə bəhs edə-edə illər ötür, lakin biz ən vacib qorumalı olduğumuz adətlərimizi əllərimizlə gömürük, lakin lüzumsuz alışqanlıqlarımızdan yaxa qurtara bilmirik.

Beləliklə nə baş verir? Toy bitir, gəlinlə bəyi ya öz darısqal evimizə, ya da əvvəlcədən kirayələdiyimiz mənzilə yola salırıq. Çünki evləri yoxdur. Hansı ki, oğlan və qızın valideynlərinin bu dəbdəbəli toylar üçün xərclədikləri pulla bir evin təməli qoyula bilərdi. Lakin yekəxanalığımız buna imkan vermir axı. Biz nə üçün ətrafımızdan, qonşularımızdan yaxşıları yox, pisləri, bəzi hallarda bizə lazım olmayanları götürürük. Məsələn, qonşu Türkiyədə valideynlərin övladlarının toylarında çox cüzi xərcləri çıxır. Bizim kimi dəbdəbəli süfrələr açmırlar. Əvəzində həm əllərində olan, həm də toya bəxşiş kimi verilən pullarla yeni ailənin evinin təməlini qoyurlar. Biz bu adəti nə üçün onlardan götürmürük. Axı bu, yaxşı bir ənənədir.

Biz nə edirik? Əmək haqqımızı illərlə banklara ödəyirik. Bir də baxıb görürük ki, hələ məbləğdən heç nə getməyib, gedən faizdəndir. Bu arada banklarımız da "sağ olsun"lar, faizi gündən-günə artırırlar.

Biz bu yolu seçirik, övladlarımız isə kirayələrdə sürünürlər. Restoranlara səpələdiyimiz pullarla övladımıza lazımi cehiz verə bilmədiyimiz üçün gənc ailə bir televizor tapıb başını qata bilmir, bir soyuducu tapıb ən azından yayın cırhacırında istifadə edə bilmir. Bax, budur bizim təfəkkürümüz. Əlimizdə-ovcumuzda olanı boş və mənasız işlərə xərcləyib vacib olanları unuduruq, əslində ağlımıza belə gətirmirik. Məncə dəyişilməli olan bunlardır...

### Adət-ənənələrimizi məhv etməyək!

Tək toylarımızı götürsək, çox adətlərimiz unudulub, yerini yeni və lüzumsuzları alıb. Toylarımızın başlanğıcı olan elçilik mərasimindən tutmuş təki toyların özünədək bu gün onlarla adətlərimiz tarixin o üzündən boylana-boylana qalıb. Onlara tərəf nə baxan var, nə də yaxına qoyan.

Kəndli-şəhərli hamı restoranlara qaçır. Ta əvvəlki kimi mağar toyları, bağçalarda açıq şəkildə toylar yığışılıb. Heç kim əziyyət çəkmək istəmir, rahatçılığı hər şeydən üstün tutur. Bu da onunla nəticələnir ki, həm adətlərimiz əlimizdən gedir, həm də pulumuz.

Restoranlar baha olduğu üçün hər evdən bir və ya iki nəfər toylarımıza dəvət edirik. O da böyüklər. Təsəvvür edin ki, dayı, əmi, xala, bibi uşaqları öz əmiqızı, dayıqızı, bibioğlu, xala qızının toyunda iştirak etmir. Bu, faciədir. Gənc qohumlar ən əziz günlərində bir-birinin yanında ola bilmirlər. Sonra da deyinirik ki, bu uşaqlar niyə bir-birindən uzaq düşürlər, bir-birinin qapısını açmırlar. Günahkar özümüz ola-ola bunu dərk etmədən hələ bir özümüzə suallar da veririk. Ta bilmirik ki, bütün bunların təməlini özümüz qoymuşuq.

Restoranlarda da o zaman ki, yallılarımızın yerini diskotekalar, milli musiqilərimizin yerini müasir dövrün bayağı mahnıları aldı, o vaxtdan çox şeylər itirdik. Ha yazırlar, ha danışırlar, heç kim əsla eşitmir.

Lakin qulaqlarımızı açıb eşitməli, gözlərimizi açıb görməliyik. Nə qədər ki, əlimizdə olanlar var, heç olmasa onları qorumaq xətrinə. Günahkar, adətlərimizin düşməni olduğumuz, onları bir-bir öz əllərimizlə itirdiyimiz üçün özümüzü tənbeh etməliyik. İtirən özümüz olduğumuz üçün onu tapıb, geri qaytarıb yerinə qoyan da özümüz olmalıyıq.

***Mətanət MƏMMƏDOVA***

# Şuşa Bəyannaməsi - əməkdaşlıqdan müttəfiqliyə

## *İLHAM ƏLİYEV: "Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb"*

***15 iyin 2021-ci il Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq Azərbaycan lideri xarici dövlətin başçısını Qarabağda - Azərbaycannı mədəniyyət beşiyi olan Şuşa şəhərində qarşıladı və Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu.***



Bəli, Müttəfiqlik haqqında Bəyannamə təqdimatı hər şeyi deyir. Bir dövlətə çevrilmişik bu tarixi sənədin imzalanmasından sonra. Şuşa Bəyannaməsi qardaşlığın rəmzidir. Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycanın birgə maraqlarının qorunması üçün hər iki ölkənin bütün imkanlarından istifadə etməyə imkan verən rəsmi sənəddir. İstər Türkiyəyə qarşı, istərsə də Azərbaycana qarşı üçüncü ölkə və yaxud ölkələr tərəfindən təhdidlər və yaxud birbaşa hücum olarsa iki ölkənin bütün imkanları səfərbər ediləcək və işğalçıya qarşı birgə mübarizə aparacaqlar.

AZƏRBAYCAN PREZİDENTİ: "Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir"

Bəli, bu gün dövlət başçımızın söylədiyi kimi: "Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir".Xüsusilə də, Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyinin göstəricisidir. Bu qardaşlıq və dostluq münasibətləri....

### MARAQLARA DEYİL, DƏYƏRLƏRƏ ƏSASLANAN TÜRKİYƏ-AZƏRBAYCAN QARDAŞLIQ BİRLİYİ

Türkiyə ilə Azərbaycan arasında əlaqələrdə atılan hər addım regional əməkdaşlığın inkişafına, təhlükəsizliyin güclənməsinə xidmət edir. Azərbaycan torpaqlarının işğaldan azad edilməsi iki dövlətin əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qələbədən sonra Azərbaycana ardıcıl olaraq səfərlər etməsi bunu təsdiqləyir. Əslində, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın səfəri bir neçə baxımdan əhəmiyyətlidir. O, bununla işğaldan azad edilən torpaqlara Azərbaycanın nəzarət etdiyini bütün dünyaya təbliğ edir, bu ərazilərə sərmayə qoyulmasının riskli olmadığını isbatlayır. Türkiyə liderinin səfərləri iki dövlət arasında əməkdaşlığın artıq səmərə verdiyinin göstəricisidir. Prezident İlham Əliyev oktyabrın 26-da Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxış edən zaman deyib: "Sizin səfərinizin çox böyük önəmi var. Siz ikinci dəfədir ki, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz. Dörd ay bundan əvvəl sizinlə bərabər Şuşa şəhərində olmuşuq. Bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır".

### TÜRKİYƏ XALQINA, HƏM DƏ BÜTÜN DÜNYAYA BİR MESAJ: "BİZ BİR YERDƏYİK. BİZİM BİRLİYİMİZ SARSILMAZDIR VƏ ƏBƏDİDİR"

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxışı zamanı bildirmişdir ki, bu gün regional işlərdə, hətta dünya miqyasında Türkiyə və Azərbaycan birliyi, qardaşlığı önəmli faktora çevrilib: "Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik. Bizim birliyimiz sarsılmazdır və əbədidir".

## *RƏCƏB TAYYİB ƏRDOĞAN: "Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq"*



Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

Prezident İlham Əliyevin Türkiyənin dövlət başçısı haqqında səsləndirdiyi səmimi sözlər bir liderin digəri haqqında rəyindən də çox, bir insanın öz doğma qardaşının uğurları ilə qürur duyması qədər xoş, sevindirici və fərəhlidir: "Rəcəb Tayyib Ərdoğan mənim qardaşımdır. Bizim çox yaxın münasibətimiz var. Həm prezidentlər kimi, həm də iki insan kimi. Ona mənim çox böyük hörmətim var. O, dünya lideridir. O, Türkiyəni böyük zirvələrə qaldırdı. Türkiyəni ucaltdı. Türkiyəni ləyaqətli, qürurlu dövlət kimi bütün dünyaya tanıtdırdı. Ona qarşı çox böyük ədalətsizliklər, haqsızlıqlar edilir, həm bəzi ölkələr tərəfindən, həm də təəssüf ki, Türkiyənin içində də bəzi siyasi qüvvələr tərəfindən... Çünki siyasi mübarizə hər yerdə var. Bir də milli məsələ var. Milli məsələdə hər hansı bir siyasi mübarizə olmamalıdır. Biz təhdid qarşısında birləşməliyik. Bu gün Türkiyəyə də hər tərəfdən hücum edirlər. Ona tab gətirmək, onun qarşısında sipər kimi dayanmaq çox böyük cəsarət tələb edir. Böyük peşəkarlıq, bilik, iradə tələb edir. Mənim qardaşım, bax, belə insandır və mən onu yaxından tanıdığım üçün bunu tam səmimiyyətlə deyə bilərəm".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə və Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı əlaqələrdə yeni dönəmin başlandığını söyləmişdi: "Qarabağa yenidən həyat verməklə yanaşı, azərbaycanlı qardaşlarımızın bir daha bu cür fəlakətlər yaşamaması üçün bir millət, iki dövlət ruhuna uyğun şəkildə tədbirlərimizi alırıq. Qardaşım Əliyevlə birlikdə imzaladığımız və dünyaya elan etdiyimiz Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq. Bu bəyannamə çərçivəsində bir çox anlaşmanı çox yaxın zamanda Türkiyə və Azərbaycan olaraq imza altına alacaq, beləcə qardaşlığımızın hüquqi təməlini daha da gücləndirəcəyik. Şuşa Baş Konsulluğumuzun ən qısa müddətdə açılmasından Zəngəzur dəhlizinin bir an öncə işləməsinə qədər gündəmimizdəki hər bir başlığı qərarlılıqla və sürətlə həyata keçirəcəyik. Önümüzdəki aylarda ölkəmizdə gerçəkləşdirəcəyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında bu xüsuslarla əlaqəli konkret addımların çoxunu atmağı planlaşdırırıq".

Bir sözlə, Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkə arasındakı əlaqələri tarixi maksimuma çatdıraraq bütün dünyaya iki ölkənin qardaşlığı ilə bağlı mesaj verilməsi baxımından da əlamətdar oldu: Belə ki, Türkiyə 44 günlük müharibə dövründə olduğu kimi sonrasında da, yeni Qarabağın dirçəldilməsi, bölgədə bütün kommunikasiyaların açılması və s. məsələlərdə də Azərbaycanı birmənalı olaraq dəstəkləyir və bundan sonra da qeyd-şərtsiz dəstəkləməyə davam edəcək. Artıq reallıqla barışmaq və gələcəyə baxmaq lazımdır. Və Şuşa Bəyannaməsi hər şeydən öncə iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Ən əsası, bu Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səslədirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi.Bir sözlə, Şuşa Bəyannaməsi- "Bir millət, iki dövlət"in müttəfiqliyini, qardaşlığını ən üst səviyyəyə qaldıran iki imzanın lider müəlliflərinin birliyidir.

Dövlət başçımızın dediyi kimi: "Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır".

**RƏFİQƏ KAMALQIZI**





***10 avqust 2022- ci il tarixində Yeni Azərbaycan Partiyası (YAP) Tərtər rayon təşkilatının sədri Eldar Əsədov və Aparatın məsul əməkdaşları, YAP fəalları, Tərtər rayon icra hakimiyyəti başçısının birinci müavini Elvin Umudov, Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Ülvi Nəcəfov və kənd sakinləri Tərtər rayon İsmayılbəyli kənd sakini Şəhid Əlizadə Elşən Faiq oğlunun doğum günü münasibəti ilə onun kənd qəbiristanlığındakı məzarını ziyarət etmiş, qəbri üzərinə gül-çiçək dəstələri düzmüş, ruhuna dualar oxunmuşdur.***

# Şəhidlərimizin əziz xatirəsi hər zaman xalqımızın qəlbində yaşayacaq!

*Tərtər rayon İsmayılbəyli kəndində şəhid Elşən Əlizadənin məzarı ziyarət olunub*

Daha sonra Şəhid Əlizadə Elşən Faiq oğlunun ailəsini ziyarət edib, onların qayğıları ilə maraqlanmışlar. Görüşdə şəhidimizin şərəfli döyüş yolundan, vətənpərvərliyindən, onun vətəninin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıqlarından danışılmışdır. YAP Tərtər rayon təşkilatının sədri Eldar Əsədov bildirmişdir ki, 2020-ci il ölkəmiz üçün Qələbə ili kimi tarixə düşdü. Ölkə Prezidenti cənab İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasəti, xalqımızın birliyi və müzəffər Ordumuzun peşəkarlığı sayəsində torpaqlarımız mənfur düşmən işğalından azad edildi. Vətən müharibəsində öz həyatlarını işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda qurban verən şəhidlərimizin əziz xatirəsinin hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaq. YAP Tərtər rayon təşkilatı və Tərtər Rayon İcra Hakimiyyəti hər an şəhid ailələrinin və qazilərin yanındadır və bundan sonra da onların problemlərinin həlli istiqamətində imkanları çərçivəsində əllərindən gələni əsirgəməyəcəklər. Qeyd edək ki, Elşən Əlizadə 10 avqust 1995-ci ildə Tərtər rayonunun İsmayılbəyli kəndində anadan olmuşdur. Azərbaycan Ordusunun əsgəri olan Elşən Əlizadə 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Suqovuşanın azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuşdur. Elşən Əlizadə 16 oktyabr 2020-ci ildə Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhid olmuşdur. Tərtər rayonunun İsmayılbəyli kəndində dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamlarına əsasən Elşən Əlizadə ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib. Sonda Şəhidin ailəsi dövlət tərəfindən onlara göstərilən diqqət və qayğını hər zaman hiss etdiklərini, buna görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildirmişlər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***R. Kamalqızı***

# Biləsuvarda doğum günündə şəhidin xatirəsi anılıb





***Biləsuvar şəhərində Vətən müharibəsi şəhidi Astanlı İqbal İlqar oğlunun doğum günü qeyd olunub.Tədbirdə Biləsuvar Rayon İcra Hakimiyyəti başçısı Faiq Qürbətov, Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı, SHXÇDX-nın Biləsuvar rayon şöbəsinin rəisi Nağı Cəfərov, YAP Biləsuvar rayon təşkilatının bir qrup ərazi partiya təşkilat sədrləri, şəhid valideynləri və ictimaiyyət nümayəndələri II Qarabağ müharibəsində Vətənimizin müdafiəsi uğrunda öz canından keçən, şəhid Astanlı İqbal İlqar oğlunun doğum günü münasibəti ilə ailəsini ziyarət ediblər.***

Ziyarətçilər şəhidin ailə üzvləri ilə görüşərək ailənin qayğıları ilə maraqlanıblar. Şəhidimizin keçdiyi döyüş yolundan, göstərdiyi xidmətindən və şücaətindən bəhs edilib. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ilin sentyabrın 27-də başlanan və 44 gündə qələbə ilə başa çatan Vətən Müharibəsinin tarixi əhəmiyyətindən danışaraq, İqbalın və bütün şəhidlərimizin qanının yerdə qalmadığını diqqətə çatdırıblar. Şəhid ailələri və qazilərin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli, hər zaman Prezident İlham Əliyev tərəfindən diqqətdə saxlanıldığını vurğulayıblar. Şəhidin ailə üzvləri şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Daha sonra ictimaiyyət nümayəndələri ilə birlikdə şəhid İqbal Astanlının məzarı ziyarət olunub, önünə gül dəstələri düzülüb və ruhuna dualar oxunub. Az?rbaycan Ordusunun əsgəri olan şəhid Astanlı İqbal İlqar oğlu 10 avqust 1997-ci ildə Biləsuvar şəhərində anadan olub. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan Vətən müharibəsində iştirak edib, döyüşlərdə şücaət göstərib və Talış kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 2020-ci ilin sentyabr ayının 29-da Biləsuvar şəhər qəbiristanlığında dəfn olunub. Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid Astanlı İqbal İlqar oğlu ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah rəhmət eləsin!

***Rəfiqə***

# "Nar" şəhid övladları üçün təşkil olunan "YAŞAT" Düşərgəsinə dəstək oldu



***"Nar" "YAŞAT" Fondunun və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə şəhid övladları üçün həyata keçirilən ikinci "YAŞAT" düşərgəsinə qatılıb. "Nar"ın da dəstəkçilərindən olduğu layihənin əsas məqsədi şəhid yadigarlarının gələcəyinə töhfə vermək, onların cəmiyyətə inteqrasiyasına kömək etməkdir. Mobil operator düşərgənin 4-cü həftəsində uşaqlar üçün mobil rabitə ilə bağlı interaktiv təlim təşkil edib.***

"Nar"ın İctimaiyyətlə əlaqələr departamentinin rəhbəri Əziz Axundov tərəfindən keçirilən təlimdən sonra uşaqlar müzakirəyə qoşulub və bu sahə ilə bağlı onların suallarıcavablandırılıb.

Şəhid övladlarına dəstəyin vacibliyini diqqətə çatdıran Əziz Axundov: ""Nar" olaraq bizim üçün xüsusi əhəmiyyətə malik olan bu layihənin bir parçası olmaqdan qürur duyur, uşaqların düşərgə zamanı əldə etdikləri təcrübələrin onların şəxsi inkişafına böyük töhfə verəcəyinə inanırıq", - deyə qeyd edib.

# Feministlər nə istəyir?

***2022-ci ildə cəmiyyət hələ də feminizmə münasibəti və onun məqsədlərini dərk etmək istəmirlər. Hətta ümumiyyətlə qadın hüquqlarını dəstəkləyən insanlar belə çox vaxt feminizmə ehtiyac olmadığına inanırlar və biz hamımız qalib bərabərlik dünyasında yaşayırıq deyə ifadələr işlədirlər.***



Lakin əslində, hələ də aktual olan qlobal problemlərin bir dəstəsi gender bərabərsizliyi ilə bağlıdır. Bir çox ölkələrdə həyatın keyfiyyəti hələ də cinsdən asılıdır. Öz həyat yolunu nə qədər seçə bilərsən? Cəmiyyət və dövlət hansı əlavə imkanları təmin edir? Azərbaycanda və digər ölkələrdə qadınların əsas problemlərinin nə olduğunu başa düşürük feministlər arasında kişilərə "nifrət edənlər" əlbəttə var. Lakin feministlərin əksəriyyəti qadınları tabe vəziyyətə salan gender bərabərsizliyi sistemi olan partiarxiyaya nifrət edir. Feministlər patriarxal sistemi məhv etməyə, o cümlədən kişiləri öz imtiyazlarından məhrum etməyə çalışırlar, feminizm kişilərlə deyil, onların imtiyazları ilə mübarizədədir.

Əksər feministləri məişət zorakılığı, kişilər və qadınlar arasında maaş bərabərsizliyi və qadınların reproduktiv hüquqlarının pozulması kimi məsələlər narahat edir. Ona görə də çətin ki, hər hansı bir feminist cüzi məsələ üçün məhkəməyə müraciət etsin, xüsusən də, məhkəmələrin çox vaxt qadınları daha ciddi məsələlərdə müdafiə edə bilməyəcəyini və ya istəmədiyini nəzərə almalıyıq.

Feminizmin bir çox fərqli qolları var, lakin əksər feministlər ailə münasibətləri və analıq məsələsində seçim azadlığını müdafiə edirlər. Qadın istədiyi qədər uşaq sahibi ola bilməlidir. İstər qadın, istərsə də kişi cinsindən asılı olmayaraq sevdiyi insanla ailə qurmalı, onunla uşaq böyütməlidir. Yaxşı, atalar üçün valideyn məzuniyyəti ailə daxilində vəzifələri daha bərabər bölüşdürməyə imkan



verir.

**Sosial işçi, aktivist Sənubər Heydərova** SİA-ya açıqlamasında Feminstik ideologiyanın dünyada yayılması 19- cu əsrdən sonra daha çox aktivləşdiyini və müxtəlif dövrlərdə, müxtəlif hərəkatlara səbəb olduğunu qeyd edir: "Azərbaycanda nə qədər bu normal qarşılanmasa da, tarixi bir proses kimi mütləq olmalıydı. Bu hərəkat həmçinin də insanı öz haqlarına, hüquqlarına qovuşduran bir hərəkatdır və informasiyanın artırdığı, fərqli fikirlərin yan aldığı dövrdə bu proseslər olmalıydı. Feminizm Azərbaycanda daha çox qadınlara qarşı olunan məişət zorakılığına qarşı qoyulan mövzu olaraq başladı və hələki dağınıq bir formada həyata keçirildiyini müşahidə edirik.

Ümumiyyətlə, bu ideologiyanı öyrənənlər feminizmin təhlükəli olmadığını, əksinə, cəmiyyəti inkişafa aparan bir ideologiyanın öyrənən fikirlər sürətlə yayılmaqdadır. Əlbəttə ki, Azərbaycanda təkcə qadınların yox bütün genderlərin daha sağlam mühitdə, hüquqi mühitdə lazımi inkişaf etməlidir. Nə qədər qaralamağa çalışsalar da, nə qədər pis tərəflərini üzə çıxarıb desələr də, bu cəmiyyətin informasiya olmadığından irəli gələn reaksiyalardır. Cəmiyyət bir şey bilmirsə onun haqda məlumat yoxdursa, ondan qorxmağa və inkar etməyə çalışır. Amma ümumiyyətlə, feminizm heç də bilgisiz insanların paylaşdığı kimi deyildir. Feminizm 2019-cu ildən bəri hər il müxtəlif aksiyalarla yadda qalır. Feminist hərəkat daha çox məişət qurbanları olan qadınların ölüm statistikasından irəli gəlir. Hər dəfə bu statistika təəssüf ki, böyüyür. 2019-cu ildən bəri daha da çoxalmışdır. Bu artım onunla bağlıdır ki, hər il belə halların baş verməsi normal qəbul olunurdu. Amma hazırkı dövrdə baş verən proseslərin müxtəlif aspektlərdən qiymətləndirdiyi halda səhv bir şey olduğunu başa düşürlər. Bu vaxta kimi məruz qaldıqları məsələlərin, əslində, zorakılığa öyrənməyə başlayırlar. Feminist hərəkat son dönəmlərdə dəfələrlə aksiyalar edib. Bu, təkcə 8 Marş aksiyası deyil, müxtəlif məsələlərlə bağlıdır. Xüsusilə, qadınların həyat yoldaşlarını incitməsi, digər ailə üzvləri sıxışdırdıqda feminizm hərəkatı özünü göstərir.

Bunun nəticəsi olaraq bir xeyli aktivistlər hansılar ki, onlar bu vaxta kimi öz problemlərini həll etməyə deyəcək adam tapırlar. Belə hərəkatlar qadınları güclü, dayanaqlıq göstərir. Çünki burada arxalana bildiyi, özlərinə dayaq bildikləri adamları olur. Bunlar həmin feminst aktivləridir.

Demək olar ki, hər gün cəmiyyət məişət zorakılıq halları baş verir və həmin aktivistlərə bunlarla bağlı xəbər verirlər. Baxmayaraq ki, çox az, hətta məhdud maliyyəsi olmur, amma əllərindən gələn dəstəyi göstərməyə çalışırlar. Əlbəttə ki, bunun nəticəsi həm də odur ki, artıq bu vaxta qədər qadınları iqnor eləyən dövlət orqanları var idi. Məsələn, onların məişət zorakılığına dırnaqarası baxıb ailə məsələsidir, şəxsi məsələdir deyib müdaxilə etməmələri.

Bu işi cinayət işi kimi görməyən güc strukturları var. Məişət zorakılığı ilə gələnləri tendensiya daha çox Bakıda hiss olunur. Amma artıq rayonlara da yavaş-yavaş tendensiya ilə tanış olmağa başlayırlar. Feministlərin tələbləri məhz bu məsələlərlə bağlıdır ki, hər hansısa bir qadın, gender nümayəndəsi və yaxud LGBT olan şəxs, özlərinin mövcudluğuna və cinslərinə görə hər hansı bir zorakılığa məruz qalırlarsa onları qoruyan güc strukturlarına və yaxud polis organlarına bildirəndə onlar sözsüz dəstək almalıdırlar. Dövlətimizin konstitusiyasına görə, Azərbaycanda dinindən, cinsindən, irqindən asılı olmayaraq hər bir vətəndaşın qorunma haqqı vardır və feministlər də bunlardan kənar bir şey istəmirlər. Onların istədiyi şey hamı kimi təhlükəsizliyinin təmin edilməsidir. Həm evdə, həm də çöldə heç bir vətəndaş öz cinsi kimliyinə görə təzyiqlərə məruz qalmasın.

Burada qanundan kənar heç bir şey yoxdur. Hal-hazırda qanunda təkmilləşdirmək olan hissələrlə bağlı müzakirələr gedir. Məişət zorakılığı qanun məcəlləsində yer alsın, ailə məsələsi cinayət işinin açılmasına maneə olmasın. Polis bölmələrində də öz işlərini vicdanla yerinə yetirə bilən polis işçiləri yerləşdirilsin. Həmçinin, istər məhkəmələrdə, istər də cinayət işlərin açılmasında məişət zorakılığa qarşı tədbirləri layiqincə görə biləcək mütəxəssislər fəaliyyət göstərsin və bu məsələlərə də digər cinayət məsələlərə kimi ciddi yanaşsınlar. Yəni feministlərin tələb etdiyi məsələlər heç bir qadının, cinsin əzilməsinə xidmət eləmir, əksinə, hər bir cinsin rahat özünü ifadə etməsini öz seçimlərini və rahat yaşaması üçün edilən tələbələrdir. Bu məsələdə dövlət orqanlarından kənar şeylər istənilmir, sadəcə, öz vəzifələrini layiqincə yerinə yetirməlidirlər. Təəssüflər olsun ki, bir çox orqanlarda öz vəzifəsindən sui- istifadə edərək özünü el ağsaqqalı kimi aparmağa cəhd eləyən, qarşıda güclə barışıq təklifləri edən, zorakı şəxsi ilə qurbanı üz-üzə gətirən və onların birgə yaşamasını tələb edən insanlarla rastlaşırıq. Feminist hərəkatının əsas səbəblərdən biri odur ki, bu insanlar kim nəyə layiqdirsə özünə aid yerlərdə otursunlar.

## Bəs bunun psixoloji tərəfləri necədir?

**Psixoloq Aidə Sübhan** bu barədə fikirlərini bildirib: "Yeniyetmələrin hansısa mənfi cərəyana qoşulması onun tərbiyələrində ancaq



mənfi təsir eləyə bilər. Hər bir yeniyetmə istər qız, istər oğlan olsun çox tərəfli inkişaf etməyə bacarmalıdır. Bu tip cərəyanlar isə onları birtərəfli edir, həm mənəvi, həm emosional inkişafını, hətta emosional zəkasının belə təkyönümlü inkişafına səbəb olur ki, bu da onun cəmiyyətdə fərd olaraq yetişməsinin qarşısını alır. Ümumiyyətlə, feminizm hər bir qadının düşündüyü bir özəllikdir. Sadəcə, feminizmi düzgün dərk etmək, düzgün aydınlaşdırmaq və əks mövqedə qiymətləndirmək lazımdır. Mənə elə gəlir ki, yeniyetmələrin sadəcə, bunun yanaşması, anlamını tam izah etmək kifayət edər. LGBT qruplar isə son dönəmlər çoxalmaqdadır.

Yeniyetmələr arasında bir mövqe yaranır, çünki onlara hər bir şeyi qəbul etdirmək, hansısa fikirləri onlara aşılamaq çox rahat gəldiyi üçün bu təbliğat daha çox, sanki onların üzərindən gedir. Bugünkü gün oğlan kimi görsənməyən oğlan uşaqları, qız kimi görünmək, danışmaq istəməyən qızlarımız var. Bu təbliğatlar məktəbdən, ailədən başlamalıdır. Təbii ki, qarşısı alınmalıdır ki, cəmiyyətimiz sağlam olsun, gələcəkdə də yeni övladların dünyaya gəlməsi üçün sağlam həyatları olmalıdır. Trans seksualizm əlbəttə ki, bir xəstəlikdir. Sadəcə, dünyada hal-hazırda təbliğatlar bu istiqamətdə gedir ki, bizdə hər şey tam normaldır, dünya bizi olduğu kimi qəbul etsin, hər kəs bizə normal yanaşsın, amma biz deyə bilmərik ki, bu funksiya tam fizioloji baxımdan normal bir insana məxsus bir hissdirmi? Həmçinin danışıqda da, düşüncədə də, emosiyada da böyük fərqlərin olduğunu görürük. Erkən yaşlardan müdaxilə etməyib xəstəlik halında inkişaf edirlərsə, artıq cəmiyyətin mənfi yanaşmalarını dəyişərək onları reablitasiya etmək lazımdır.

Azərbaycanda ilk dəfə yaradılan **"qadinkimi.com" adlanan feministlərin saytın yaradıcısı, yazıçı və feminist Aysel Əlizadə** "Dünya feminizmi qadın-kişi hüququnu bərabərləşdirmək üçün böyük mübarizələrdən keçir deyə qeyd edir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə qadınlarımıza seçki hüququ verilib. Cümhuriyyət qurucuları qadınların təhsil alması, ictimai həyatda öndə olması üçün bacardıqlarını ediblər.

Təəssüf ki, Azərbaycanda çoxları feminizmi qadınların hüquqları və kişilərin əleyhinə olan mübarizə kimi qəbul edirlər. Lakin bu anlayış doğru deyil. Feminizm bərabərlik və qadınlarla kişilər arasında bərabər hüquqlar uğrunda mübarizədir. Yəni, bu qadınlar tərəfindən cəmiyyət qarşısında kişilərlə eyni hüquqlar almaq üçün irəli sürülmüş haqlı tələbdir. Əvvəllər feministlər haqqında səhv düşüncəyə malik insanlarla tez-tez mübahisə edirdim. Lakin son zamanlar, sadəcə, onlar Vikipediya-dan link göndərirəm ki, özləri oxuyub hər şeyi başa düşsünlər. Lakin nə qədər başa salsaq



da, çoxları bunu başa düşmək istəmirlər. Bu hərəkatın mahiyyətini başa düşmək üçün insanlar sadəcə feminizm barədə daha çox oxumalıdırlar. Dünyada artıq feminizmin dördüncü dalğası keçib, Azərbaycanda isə hələ də üçüncü dalğadayıq. Ölkədə kişilər və qadınlar üçün bərabər hüquq və imkanların dövlət zəmanətinə dair qanun mövcud olsa da, əksəriyyət bunu başa düşmür və etiraf etmək istəmir. Təəssüf ki, hər bir qız uşaqlıqdan müxtəlif stereotiplərlə qarşılaşır.

Feminist fəlsəfəsinin meydana gəlməsi tarixən qadınlara qarşı ictimai-siyasi ədalətsizliyin olmasından qaynaqlanıb. Bunun bir hərəkat kimi tarixinə nəzər salsaq, başlanğıcını qadının təhsil haqqının müdafiəsi, daha sonra isə seçim və digər hüququnun da tələb edilməsi kimi görürük. 19-cu əsrdə isə feminist hərəkatı daha da şaxələndi və bütün qitələri bürüdü. Ümumiyyətlə, feminizm hərəkatı müxtəlif dövrlərdə müxtəlif məzmunlarda ortaya çıxıb. İlkin dövrlərində qadınların ən kiçik hüquqlarını bərpa etmək üçün meydana çıxan hərəkat daha sonra 20-ci əsrdə ənənəvi həqiqət və dəyərlərin, anlayış və tezislərin hamısının kişilər tərəfindən irəli sürüldüyü və bunların kişi üstünlüyünə xidmət etdikləri üçün rədd edilməsinin zəruri olduğunu müdafiə elədi, feminizm idrak nəzəriyyəsinə transformasiya olmuşdur.

***Havar Şəfiyeva***

ARAŞDIRMA

# İqtisadi inkişaf konsepsiyası: Bizi növbəti 5 ildə nə gözləyir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*



Qəbul olunmuş strategiyaya görə, ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft ixracının artırılması hesabına davamlı və yüksək iqtisadi artım təmin olunacaq. Keyfiyyətli məhsul və xidmətlər ixracı hesabına ölkə iqtisadiyyatı qlobal dəyər zəncirinə inteqrasiya ediləcək. Bu məqsədlə daha sağlam və rəqabətli biznes mühiti yaradılacaq, sahibkarlığın inkişafına dövlət geniş dəstək verəcək. Dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi artırılacaq,

*"2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na daxil olan dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevirə bilər.*

onların hesabatlılığı gücləndiriləcək. Nəticədə ölkə iqtisadiyyatı hər il orta hesabla 3-4%, qeyri-neft/qaz ÜDM-i isə illik orta hesabla 5% artacaq.

Özəl sektorun iqtisadiyyatda payı 88%-ə çatdırılacaq. Sağlam və rəqabətli biznes mühiti üçün qanunun aliliyi təmin olunacaq və effektiv məhkəmə islahatları həyata keçiriləcək. Bu islahatlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların mülkiyyətinin və maraqlarının effektiv müdafiəsinə imkan verəcək. Sahibkarlıq fəaliyyəti üzərində izafi tənzimləmə optimallaşdırılacaq. Təbii inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısı alınacaq və bütün bazarlarda rəqabət gücləndiriləcək. Dövlət satınalmalarında şəffaflıq və səmərəlilik artırılacaqdır. İnvestisiyalar üçün əlverişli vergi şərtləri tətbiq ediləcək və digər fiskal stimullar veriləcək.

Bu islahatların həyata keçirilməsi sayəsində biznes mühiti daha da 14 sağlamlaşdırılacaq, milli iqtisadiyyata etimad artacaq və nəticədə böyük həcmdə daxili və xarici investisiyalar cəlb ediləcək. Sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin effektivliyi, ünvanlılığı və şəffaflığı gücləndiriləcək. Uğurlu ölkələrin təcrübələri əsasında biznes startaplarının və inkubatorlarının, ixracyönümlü istehsal və xidmətlər üzrə biznes layihələrinin dəstəklənməsi mexanizmləri təkmilləşdiriləcək. Nəticədə, sahibkarlıq fəaliyyətinə başlamaq və mövcud fəaliyyətini genişləndirmək istəyənlər, xüsusilə kiçik və orta bizneslər üçün yeni maliyyələşmə mexanizmləri yaradılacaq. Bu əsasda sahibkarlara dəstək üzrə sərf olunan maliyyə vəsaitinin 20-30%-nin mikro, 35-45%-nin kiçik və 25-35%-nin orta sahibkarlara yönəldilməsi hədəflənir.

Dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətinin iqtisadi səmərəliliyi yüksəldiləcək, idarə edilməsi yaxşılaşdırılacaq və şəffaflığı artırılacaq. Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş dövlətə məxsus olan hüquqi şəxslərin effektivliyi, maliyyə dayanıqlığı və rəqabət qabiliyyəti artırılacaq. İqtisadiyyatda dövlətin bilavasitə iştirakı optimallaşdırılacaq, strateji sahələr istisna olmaqla, dövlət mülkiyyətində olan aktivlərin mərhələli şəkildə özəlləşdirilməsi istiqamətində tədbirlər həyata keçiriləcək ki, bu da dövlət resurslarına olan tələbatı və riskləri azaldacaq. Həmçinin özəlləşdirilməsi müəyyən müddət məqsədəuyğun hesab olunmayan təsərrüfat subyektlərinin kommersiyalaşdırılması və ya idarəetməyə verilməsi yolu ilə səmərəlilik göstəricilərinin daha da yaxşılaşmasına nail olunacaq.

Qeyri-neft/qaz sektoruna birbaşa xarici investisiya cəlbi təşviq ediləcək, dövlət mülkiyyətində olan aktivlərin özəl sektora transformasiyası baş verəcək. Strateji sahələr istisna olmaqla, dövlətə məxsus olan hüquqi şəxslərin özəlləşdirilməsi və dövlət-özəl tərəfdaşlıq mexanizmləri ilə iqtisadiyyatın maliyyələşdirilməsi həyata keçiriləcək.

Dövlət investisiyalarının effektivliyi artırılacaq, onun özəl investisiyaları stimullaşdırma potensialı yüksəldiləcək. Birbaşa xarici investisiyaları prioritet iqtisadi sahələrə yönəltmək üçün yeni mexanizmlər formalaşdırılacaq, investorlarla birbaşa dialoq mexanizmləri tətbiq olunacaq.

Beynəlxalq inkişaf institutlarının, xüsusilə özəl sektorun inkişafının maliyyələşməsi üzrə ixtisaslaşan institutların maliyyələşmə potensialından optimal istifadə təmin ediləcək və nəticədə, qeyri-neft/qaz sektoru üzrə birbaşa xarici investisiyaların həcmi illik 10-15% artacaq.

Rəqəmsal texnologiyaların tətbiqi imkanlarının genişləndirilməsi üçün normativ hüquqi baza yaradılacaq və bu sahə dövlət tərəfindən tənzimlənəcək. Rəqəmsal texnologiyaların inkişafı məqsədilə xüsusi fondlar və inkişaf institutları fəaliyyət göstərəcək, bu əsasda internet, yüksəksürətli mobil internet (5G texnologiyası daxil olmaqla), xüsusilə genişzolaqlı internet xidmətlərinin əhatəsi 95%-ə çatdırılacaq. Aqrar sektor, sənaye və xidmət sahələrində müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artacaq, həmçinin yeni iş yerləri yaradılacaq.

Dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahələrin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunacaq. Dövlət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında aktiv iştirak edəcək, müxtəlif sənaye parkları və məhəllələri, turizm və rekreasiya zonaları yaradılacaq, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılacaq. Nəticədə, 2022-2026- cı illərdə kənd təsərrüfatı hər il orta hesabla 4% artacaq.

Nəqliyyat sektorunda orta illik artım tempi 5%-i üstələyəcək. Ölkənin tranzit yükdaşımalardan əldə etdiyi gəlir 2019-cu ildəki 227 mln



manatdan 2 dəfəyədək artaraq, 450 mln manata çatacaqdır. 15 Qeyri-neft/qaz sənayesi hər il orta hesabla 8,3% artacaq, sənaye zonalarının qeyrineft/qaz sənaye istehsalında payı 15%, qeyri-neft/qaz sənaye ixracında payı isə 25% olacaq. İnformasiya və rabitə sektorunda hər il orta hesabla 10%-dən çox, tikinti sektorunda isə təxminən 3% artım olacaq. 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda yaradılacaq əlavə dəyər 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq.

Dayanıqlı iqtisadi artım üçün ölkədə makroiqtisadi sabitlik və dayanıqlıq təmin olunacaq, maliyyə sektorunun bütün seqmentlərinin sabitliyi gücləndiriləcək. Makroiqtisadi sabitliyin və maliyyə sabitliyinin gücləndirilməsi iqtisadi artımın davamlılığı üçün vacibdir. Ölkənin makroiqtisadi dayanıqlığı irihəcmli strateji ehtiyatlarının mövcudluğu milli iqtisadiyyatımızın xarici mühitdəki dəyişikliklərə dayanıqlı olmasını gücləndirəcək. Fiskal sabitlik üçün tənzimləmə çərçivəsi təkmilləşdiriləcək və bu təməl şərtlərlə illik inflyasiya 4±2% intervalında qorunacaq, icmal büdcənin qeyri-neft baza kəsirinin qeyri-neft/qaz ÜDM-ə nisbət göstəricisinin yuxarı həddi 2026-cı ilin sonunadək 17,5% təşkil edəcək, bu şəraitdə Dövlət Neft Fondunun aktivləri dayanıqlı səviyyədə saxlanılacaq.

Növbəti illərdə tələb olunan maliyyələşmələrin daxili borcalmalar hesabına təmin edilməsi yolu ilə 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 20%, o cümlədən xarici dövlət borcunun ÜDM-də payının isə 10% ətrafında saxlanılması hədəflənir. Maliyyə sektorunun bütün seqmentlərinin iqtisadiyyatda rolu artırılacaq. Bank sektorunun iqtisadiyyatın maliyyələşməsində iştirakı yüksəldiləcək, maliyyə inklüzivliyi genişləndiriləcək, maliyyə xidmətlərinin əlçatanlığı, əhali və biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanları artırılacaq.

Dövlət-özəl sektor əməkdaşlığı çərçivəsində investor və kreditorların risklərinin sığortalanması sistemi təkmilləşdiriləcək, biznes kreditlərinə təminatların verilməsi mexanizminin əhatəliliyi genişlənəcək. Maliyyə xidmətlərinin rəqəmsallaşması fonunda əhali və biznesin investisiyalar və İKT sahəsində savadlılığı artırılacaq. Dayanıqlı iqtisadi artımın təmin olunmasında maliyyə sekrorunun rolunun gücləndirilməsi üçün ölkədə uzunmüddətli kollektiv investorlar şəbəkəsinin yaradılması stimullaşdırılacaq, sığorta və korporativ qiymətli kağızlar bazarı dərinləşdiriləcək.

Rəqabətli, innovativ və əlçatan ödəniş mühitinin əhatəliliyi, habelə ölkə üzrə nağdsız ödəniş alətlərindən tam istifadə imkanları genişləndiriləcək. Eyni zamanda, sosial ödənişlərdə banklararası rəqabətin gücləndirilməsi, pensiya və müavinətlərin alınması üzrə bank seçimində sərbəstlik təmin ediləcəkdir. Bu əsasda maliyyə dərinliyini ifadə edən göstəricilər davamlı yaxşılaşacaq, iqtisadi subyektlərin milli ödəniş sistemində aparılan əməliyyatlarının həcmi 25% artacaq, o cümlədən ödəniş kartları ilə aparılan əməliyyatlarda nağdsız əməliyyatların payı 55%-ə çatacaq.

İxrac şaxələnəcək və qeyri-neft ixracı genişlənəcək. İxracı asanlaşdırmaq üçün idarəetmə və institusional mexanizmləri tənzimləmə çərçivəsi təkmilləşdiriləcək. İxracyönümlü yerli məhsulların keyfiyyətli istehsalı təmin olunacaq və e-ixrac inkişaf etdiriləcək, qeyri-neft/qaz ixracının təşviqinə dövlət dəstəyi artırılacaq, 2021-ci illə müqayisədə 2026-cı ildə qeyri-neft/qaz ixracının həcminin 85% artmasına nail olunacaq.

Göründüyü kimi, hədəflər yüksəkdir və potensial da buna uyğundur. Strateji inkişaf planlarının həyata keçirilməsindən sonra ölkə iqtisadiyyatının müasir tələblərə uyğunlşaması və dünya iqtisadi sisteminə inteqrasiya üçün geniş imkanlar açır. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat üzrə strateji çərçivə bu planların həyata keçirilməsi üçün lazımi baza yaradır.

Dünya iqtisadiyyatında davamlı böhranların baş verdiyi bir şəraitdə Azərbaycan öz iqtisadi inkişafını artırır və getdikcə yüksələn iqtisadi artım tempi ilə davam edir. Bunun nəticəsində getdicə idxaldan asılılıq azalır, ixrac qabiliyyəti artır, ölkənin maliyyə imkanları güclənir, investisiya bazası yüksəlir.

Düşünülmüş iqtisadi strategiya öz növbəsində sosial-mədəni, elmi-texniki inkişafı da təmin edir. Bu siyasət Azərbaycanı tezliklə dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilməyi hədəfləyib. Şübhə yoxdur ki, belə də olacaq.

***Elçin***

Səs
11 avqust
2022-ci il

# Hansı aralıqlarda su içmək lazımdır?



***"Həyatın davamı üçün su əvəzolunmazdır. Orqanizmin 60%-i, beynin isə 85%-i sudan ibarətdir. İnsan qida qəbul etmədən, ancaq su içərək uzun müddət yaşaya bilər. Ancaq susuz bir neçə gün yaşaya bilər". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Onun sözlərinə görə, suyun orqanizmdə vəzifələri var: "Qidaların həzmi, soyulması və hüceyrələrə daşınması da bura aiddir.***

Az su içdikdə və orqanizm susuz qaldıqda həzm problemləri, qəbzlik kimi bir sıra problemlər meydana gəlir. Hər 1 kaloriyə görə 1 ml su içmək lazımdır. Məsələn, 2500 kkal qidalanan biri 2500 ml su qəbul etməlidir. Bu ehtiyac fiziki aktivliyə, xəstəlik zamanı, iqlim şərtlərində, qadınlarda hamiləlik dövründə, südvermə zamanı dəyişir.

Səhər oyandıqda yeməkdən əvvəl, günorta və axşam yeməklərindən 30 dəqiqə əvvəl və 2 saat sonra, gecə yatmadan əvvəl su içmək ən uyğun vaxtlardır. Bu vaxtlarda su içmək həzmi asanlaşdırır, daha az kalori qəbul etdirir, mədəni rahatladır, bədən temperaturunu tənzimləyir. Su içməyi vərdiş halına gətirmək üçün iş stolunda, istirahət otağında su qoymaq məsləhətdir. Belə etdikdə su içməyi alışqanlıq halına gətirə bilərsiniz".

Asim Vəliyev sözlərinə belə davam edib: "Suyun temperaturu onun ləzzətini də müəyyən edir. Ümumi olaraq içiləcək suyun temperaturu 7-12 °C arasında olması məqsədəuyğundur. 20°C-dən çox isti sular mədə bulanmasına səbəb ola bilər".

*Ayşən Vəli*

# Bizon əti insan sağlamlığına zərərlidir?

"Bizon mal-qaranın bir növüdür. Bizonlar Belçikada, Almaniyada və vəhşi təbiətdə olur və fermer təsərrüfatı vəziyyətində inkişaf etdirilir". Bu fikirləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib.

Onun sözlərinə görə, bu barədə Aəzrbaycanda tədqiqat aparılıb və bununla da məlum olub ki, "Şahdağ" qoruğunda vaxtı ilə bizonlar olub: "2018-2019-cu illərdə Azərbaycana təxminən 50 baş bizon gətirilərək vəhşi təbiətə buraxılıb. Hazırda "Şahdağ" qoruğunda 50-dən çox bizon var. Onlar artırılaraq, vəhşi təbiətdə yetişdirilir və eyni zamanda fermer təsərrüfatı şəklində saxlanılır. Bizon ətlik bir heyvandır. Hələ ki, onun təsərrüfatlaşdırılması Azərbaycanda həyata keçirilməyib. Lakin başqa ölkələrdən Azərbaycana bizon ətlərinin gətirilməsi istisna olunmur. Çünki orda artıq vəhşi təbiətdən ayrıraraq fermer təsərrüfatı səviyyəsində saxlayırlar. Vəhşi təbiətdə azad yaşayan bu heyvanların əti qiymətlidir. Mən hər zaman deyirəm ki, baytarın əli çatmayan hər bir qida məhsulu çox qiymətlidir. Azərbaycanda yəqin ki, bir müddət sonra bizon ətlərinin fermer təsərrüfatına çevrilməsi gözlənilir".



*Banuçiçək Hüseynli*

# İslam Həmrəyliyi Oyunlarında daha 2 medal!




***Azərbaycan Türkiyənin Konya şəhərində keçirilən 5-ci İslam Həmrəyliyi Oyunlarında 5 və 6-cı medalını da təmin edib. Qol.az xəbər verir ki, taekvondoçumuz Fəridə Əzizova (67 kq) Qazaxıstan idmançısı Fenuza Yengeşovaya qalib gəlməklə yarımfinala yüksəlib. O, ən azı bürünc medalı təmin edib.***

Eyni uğura kişi takevandoçumuz Cavad Ağayev (68 kq) də imza atıb. O, Qazaxıstan təmsilçisi Eldar Birimbaya qalib gələrək yarımfinala vəsiqə qazanıb.

Qeyd edək ki, daha əvvəl Anna Skidan çəkicatmada qızıl, taekvondoçu Həşim Məhəmmədov bürünc, üçtəkanla tullanmada Aleksis Kopello gümüş medala sahib çıxıb. Bir neçə saat öncə taekvandoçumuz Patimat Abakarova isə yarımfinala yüksəlməklə bürünc medalı təmin edib.

# Qaranlıqda telefon, planşet istifadə etmək uşaqlarda bu xəstəliyə yol açır!



***Gözlərdə batma və quruluq şikayəti son zamanlar çox rast gəlinir. Göz quruluğundan əziyyət çəkən insanların saatlarla televizor, kompüter və telefona baxmağı məsləhət görülmür.***

Bu barədə Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Nigar Həsənova nazirliyin rəsmi feysbuk səhifəsində canlı yayım zamanı deyib.

"Qaranlıqda kompüter, telefon və planşetlərə baxmaq göz dibində ola biləcək xəstəliklərin cavanlaşmasına səbəb olur. Eyni zamanda yuxu hormonunun ifrazında problem yaradır, uşaqlarda isə boy hormonunun inkişafına mane olur. Ümumiyyətlə uşaqlar qaranlıqda telefon, planşet istifadə etməməlidir.

Bəzi eynəklərin insanı kompüter şüasından qoruduğu elmi baxımdan təsdiqini tapmayıb. Yəni optikada təklif edilən şüadan qoruyucu eynəklər sizin fərdi seçiminizdir, lakin onun effekti düşündüyünüz kimi olmaya bilər. Ekran qarşısında olarkən insanlar gözlərini normadan az qırpırlar. Kompüter arxasında oturanlar mütləq gözlərini tez-tez qırpmalıdır və nəmləndirici damlalardan istifadə etməlidir.

Uşaqlar arasında zəifgörmə səviyyəsi artıb. Uşaqlar görmə səviyyəsi 10-20 faiz olana qədər zəif gördüklərini hiss etmirlər".

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3300